www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 23 may 2018-ci il Çərşənbə № 112 (7001) Qiyməti 60 qəpik

**Xəbər**

## Həftəsonu əfv sərəncamı veriləcək

yazısı səh.6-da

**Gündəm**

### Rəsmi Tiflisin Bakıya növbəti xəyanətinə sərt etirazlar



Gürcüstan işğalçı ölkəyə ərazisindən dəhliz verməklə Qarabağın ilhaqına bəraət qazandırır; **deputat:** "İşğalçı Ermənistana yolun açılması, əlbəttə, qəbulolunmazdır"

yazısı səh.12-də

### Hüquqşünasdan çağırış: "Korrupsioner məmurlara ömürlük həbs verilsin"

yazısı səh.4-də

### Prezident 30 milyona tikilən zavodun açılışında

yazısı səh.7-də

### Azərbaycan ABŞ kəşfiyyatının maraq dairəsində

yazısı səh.9-da

### Türk lirəsi "üzü üstə", manata "maşallah" ...

yazısı səh.7-də

### Müxalifətdən hökumətə gecikmiş təkliflər

yazısı səh.10-da

### Deputatdan və polkovnikdən müharibə anonsu

yazısı səh.5-də

### Tanınmış siyasət adamlarının xaricdə yaşayan övladları-siyahı

yazısı səh.13-də

*Musa Yaqubun qızı:*

### "Atam artıq yeriyə bilmir, səsi çıxmır..."

yazısı səh.13-də

**Ramazan ayının 7-ci günü**

**İftar 20.13. İmsak 03.22-dək (QMI)**

**7-ci günün duası: "İlahi, mənə bu günün orucunu tutmaqda və yaxşı əməllər etməkdə kömək ol! Belə bir gündə məni bu günün əyri yollarından və günahlarından uzaqlaşdır! Məni Öz köməyinlə Səni daim yad etməyə müvəffəq et! Ey, yolunu azmışlara Yol Göstərən!"**

**İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".**

**ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN.**

## Paşinyandan post-inqilab sabotajı - kritik gəlişmə

# İRƏVANIN DEMARŞI - KREMLƏ ARXADAN ZƏRBƏ

Yeni hökumət Rusiyaya qarşı riskli oyunda; İrəvanda MDB təhlükəsizlik tədbirinin ləğvinin ilginc motivi; Kremlə sədaqət andını pozan dönük Paşinyanın cəzası nə olacaq?..



yazısı səh.9-da

## Azərbaycan 4 nüvə dövləti ilə ortaq təşkilatda-mühüm gəlişmə

Çindəki səfirimiz Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatındakı mövcud statusunu yüksəltmək istəyində olduğunu bəyan etdi; rəsmi Bakı niyə yenə üzünü Asiyaya tutur?

yazısı səh.8-də



Ramiz Həsənov

### Elmar Məmmədyarov ən çox dil bilən müavinini təqdim etdi

yazısı səh.7-də



Fidumə Hüseynova

### Bakı Şəhər İcra Hakimiyyətində üç postu bir qadın idarə edir

yazısı səh.3-də



### Əli İnsanov, nəhayət, azadlığa buraxıla bilər

yazısı səh.6-da

YENİ MÜSAVAT
N 111 (7000) 22 may 2018



## "Regionumuzda enerji sahəsində əməkdaşlıq yeni səviyyəyə qalxır" - prezident İlham Əliyev

**"Energetika sahəsində əməkdaşlıq üçün perspektivlər ümidvericidir. Bu məsələ imzalanan Fəaliyyət Planında öz əksini tapıb. Azərbaycan nəhəng enerji layihələrinin təşəbbüskarıdır və fəal iştirakçısıdır. Onların arasında "Cənub Qaz Dəhlizi" layihəsi xüsusi yer tutur. Gələn günlər ərzində biz artıq "Şahdəniz-2" layihəsinin başa çatmasını qeyd edəcəyik. Gələn ay TANAP layihəsi istismara veriləcək. Beləliklə, Cənub Qaz Dəhlizinin əsas layihələri artıq başa çatmış olacaq. Bu, enerji təhlükəsizliyi məsələlərinə Azərbaycanın növbəti töhfəsidir. Bu nəhəng enerji layihəsi geniş beynəlxalq əməkdaşlıq məsələlərinin həllinə də öz müsbət təsirini göstərib. Hazırda bizim regionumuzda enerji sahəsində əməkdaşlıq yeni səviyyəyə qalxır".**

APA-nın məlumatına görə, bunu Azərbaycan prezidenti İlham Əliyev Serbiya prezidenti Aleksandr Vuçiçlə görüşdən sonra mətbuata bəyanatında deyib.

"Ötən ilin oktyabrında Bakı-Tiflis-Qars dəmir yolunun istismara verilməsi ilə bağlı Bakıda mərasim keçirilib. Bu yol da çox böyük əhəmiyyətə malikdir. Bu yolun fəaliyyətə başlaması nəticəsində Asiya ilə Avropa Azərbaycan və digər ölkələr üzərindən bir-biri ilə bağlanır. Bu, Asiyadan Avropaya və əks istiqamətə ən qısa yoldur. Yüklər artıq bu yol vasitəsilə daşınır və yüklərin həcmi getdikcə daha da artacaq. Əlbəttə ki, biz Serbiyanı bu dəmir yolunun fəal iştirakçısı kimi görürük. Hesab edirəm, bizim müvafiq qurumlarımız bu məsələ ilə bağlı artıq danışıqlara başlaya bilərlər ki, biz yükdaşımaların artıra bilək. Beləliklə, ölkəmizin təşəbbüsü ilə həyata keçirilən enerji və nəqliyyat layihələri geniş əməkdaşlıq üçün yeni imkanlar açır. Bu, turizmin inkişafına təkan verəcək, qarşılıqlı ticarət dövriyyəsini artıracaq və beləliklə, bölgəmizdə, Avrasiya məkanında sabitliyi möhkəmləndirəcək, təhlükəsizliyi təmin edəcək", - deyə o vurğulayıb.

**Azərbaycan prezidenti qeyd edib ki, bu gün müzakirə olunan məsələlər arasında bizim iqtisadi əməkdaşlıq məsələləri geniş yer alıb:** "Biz bu istiqamətdə atılan addımları yüksək qiymətləndiririk. Ancaq, eyni zamanda, tam əminik ki, mövcud ticarət dövriyyəsi bizim iqtisadi potensialımızı əks etdirmir. Artım var, ancaq mütləq rəqəmlər hələ də çox aşağıdır. Ona görə əminəm ki, səfər zamanı müzakirə olunan və olunacaq məsələlər gələcəkdə ticarət dövriyyəsinin artırılmasına gətirib çıxaracaq, bunun üçün yaxşı imkanlar var".

## İstanbulda intihar edən Azərbaycan vətəndaşı kimsəsizlər qəbiristanlığında basdırılıb

**Azərbaycan vətəndaşı Türkiyədə intihar edib. APA-nın məlumatına görə, İstanbulda tikintidə işləyən Zaqatala rayon sakini Əlizadə Rüstəm Əfrasiyab oğlunun meyiti iş yerində asılmış vəziyyətdə aşkar edilib.**

Yaxınlarının dediyinə görə, intihar hadisəsi bu ilin mart ayında baş verib, lakin onun ölümü ilə bağlı məlumat ailəsinə bir neçə gün əvvəl çatdırılıb.

Yaxınları bildirir ki, R. Əlizadə ötən ilin dekabrında ailəsinə bildirmədən rayonu tərk edib. Yaxınları onun Rusiyaya işləməyə getdiyini düşünüblər. Lakin R. Əlizadənin ailəsi mayın 17-də Azərbaycanın Türkiyədəki səfirliyindən onun intihar etməsi barədə məktub alıb. Mərhumun atası hadisə ilə bağlı məlumat alan kimi dərhal Türkiyəyə gedib.

Araşdırmalar zamanı məlum olub ki, R. Əlizadə martın 7-də intihar edib. Onun asılmış meyiti işlədiyi tikintidə aşkar edilib. 14 gün müddətində R. Əlizadə ilə maraqlanan olmadığı üçün o, kimsəsizlər qəbiristanlığında dəfn edilib.

Artıq bir neçə gündür ki, mərhumun atası onun nəşinin Azərbaycana gətirilməsi üçün Türkiyə tərəfi ilə danışıqlar aparır. Lakin hələlik nəticə əldə olunmayıb.

Azərbaycanın İstanbuldakı Baş Konsulluğundan APA-nın Türkiyə bürosuna hadisə barədə məlumatlarının olduğunu bildiriblər. Qeyd olunub ki, konsulluğun əməkdaşları mərhumun atası ilə görüşərək, ona meyitin Azərbaycana aparılması üçün hansı addımların atılması barədə istiqamət veriblər: "Konsulluq da öz növbəsində bu məsələ üzərinə düşən bütün vəzifələri yerinə yetirib, bundan sonra da yetirəcək".

# DİM qəbul imtahanlarında balların hesablanma qaydasını açıqlayıb

**Dövlət İmtahan Mərkəzi (DİM) 2018/2019-cu tədris ili üçün ali təhsil müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər üçün mayın 13-də II və III, mayın 20-də isə I və IV ixtisas qrupları üzrə keçirilən qəbul imtahanlarında iştirak edən abituriyentlərin ballarının hesablanması qaydasını açıqlayıb.**

APA-nın xəbərinə görə, qaydaya görə, abituriyentin ümumi balı hesablanarkən hər bir fənn üzrə topladığı nisbi ballar aşağıdakı cədvəldə verilmiş müvafiq çəki əmsallarına vurulmaqla cəmlənir. Hər bir fənn üzrə nisbi bal aşağıdakı qaydada hesablanır:

NB = NBq + NBa

NB - fənn üzrə nisbi bal,
NBq - qapalı tipli test tapşırıqları üzrə nisbi bal,
NBa - açıq tipli test tapşırıqları üzrə nisbi baldır.

NBq = 4 x Dq - Yq (hesablamanın nəticəsi mənfi alınarsa, NBq=0 götürülür),

Dq - qapalı tipli test tapşırıqları üzrə doğru cavabların, Yq - qapalı tipli test tapşırıqlarının üzrə yanlış cavabların sayıdır.

NBa = 4 x Da (açıq tipli test tapşırıqları tətbiq olunmayan fənlər üzrə NBa=0 götürülür),

Da - açıq tipli test tapşırıqları üzrə doğru cavabların sayıdır.

Ətraflı məlumat almaq üçün bu linkdən istifadə edə bilərsiniz:

http://dim.gov.az/bh/index.html

| İMTAHAN FƏNLƏRİ | İXTİSAS QRUPLARI VƏ MÜVAFİQ ÇƏKİ ƏMSALLARI | | | |
|---|---|---|---|---|
| | I QRUP | II QRUP | III QRUP | IV QRUP |
| Ana dili | 1 | 1 | 2 | 1 |
| Ədəbiyyat | | | 1 | |
| Riyaziyyat | 2 | 2 | 1 | 1 |
| Fizika | 2 | | | 1 |
| Kimya | 1 | | | 2 |
| Biologiya | | | | 2 |
| Tarix | | | 2 | |
| Azərbaycan tarixi | | 1 | | |
| Coğrafiya | | 2 | | |
| Xarici dil | 1 | 1 | 1 | |



## Yasamalda məzar daşları üzərindəki barelyefləri oğurlayan şəxslər tutulub

**Daxili işlər orqanlarının əməkdaşları tərəfindən keçirilən növbəti uğurlu əməliyyat nəticəsində Yasamal rayonunda yerləşən qəbiristanlıqda məzar daşlarının üzərində olan bürünc və latundan hazırlanan barelyefləri oğurlamaqda şübhəli bilinən şəxslər saxlanılıb.**

DİN-dən APA-ya verilən məlumata görə, 28-ci polis bölməsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində qeyd edilən oğurluqları törətməkdə şübhəli bilinən Bakı şəhər sakinləri Sahib Əsədullayev və onun qohumu Mikayıl Əsədullayev tutularaq məsuliyyətə cəlb ediliblər.

Araşdırma zamanı məlum olub ki, saxlanılan şəxslər oğurladıqları əşyaları əlvan metal qəbulu məntəqələrinə satıblar. Onların yaşadıqları mənzillərdən oğurladıqları barelyeflərdən bəzilərinin hissələri aşkar olunaraq maddi sübut kimi götürülüb.

İstintaq zamanı məlum olub ki, S.Əsədullayev və M.Əsədullayev Yasamal rayonu M.Müşfiq küçəsində yerləşən qəbiristanlıqdakı daha 20 məzarın üzərində olan barelyefləri də oğurlayıblar.

Qeyd edilən faktlarla bağlı Yasamal Rayon Polis İdarəsinin İstintaq şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb. Saxlanılanların digər cinayətlərdə iştirakları da istisna olunmur. Onların əməllərindən zərərçəkən başqa vətəndaşlar varsa, bu barədə Daxili İşlər Nazirliyinin "102 - Zəng Mərkəzi" Xidmətinə və ya Yasamal RPİ-nə müraciət edə bilərlər.





## Bakıda kafedə dəhşətli partlayış - 2 ölü...

**Bakıda kafedə partlayış olub. APA-nın məlumatına görə, Binəqədi rayonu, "Elit" Ticarət Mərkəzi yaxınlığında yerləşən kafedə baş verən partlayış nəticəsində iki nəfər ölüb.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Səfayə Əhmədova APA-ya bildirib ki, hadisə yerinə təcili tibbi yardım briqadaları cəlb olunub.

Təcili tibbi yardım hadisə yerinə çatana qədər iki nəfər ölüb. Ölənlərdən biri qadın, biri kişidir. Daha iki nəfər isə xəsarət alıb. Xəsarət alanlar Respublika Yanıq Mərkəzinə yerləşdirilib.

FHN-dən verilən məlumatda bildirilir ki, Bakı şəhərinin Binəqədi rayonunda ümumi sahəsi 25 m2 olan (10 m2 hissəsi daşdan, qalan hissəsi taxta konstruksiyalardan ibarət) tikilinin (çayxana kimi fəaliyyət göstərir) içərisində propan qaz balonu partlayıb.

Nəticədə tikilinin yanar konstruksiyaları yanıb.

Yanğın yerinin kəşfiyyatı zamanı şəxsiyyəti məlum olmayan 2 nəfərin (qadın və kişi) yanmış meyiti yanğınsöndürənlər tərəfindən aşkar edilib.

Daha 2 nəfər (İbrahimov Natiq Zahid oğlu, 44 yaş; İbrahimova Şəkər Xosrov qızı, 53 yaş) yanğınsöndürənlər hadisə yerinə çatana kimi xəstəxanaya aparılıb.



Maykl Pompeo

## ABŞ İrana qarşı 12 şərt irəli sürüb

**ABŞ dövlət katibi Maykl Pompeo İranla yeni razılaşma imzalanması üçün 12 şərt irəli sürüb.**

APA-nın "Associated Press" agentliyinə istinadən verdiyi məlumata görə, ABŞ dövlət katibi deyib ki, Tehran uranın zənginləşdirilməsi üzrə işləri dayandırmalı və heç vaxt pluton emalı ilə məşğul olmamalıdır.

M. Pompeo İranın ballistik raketlərin yayılmasını və raket hazırlanmasını dayandırmalı olduğunu bildirib. Eyni zamanda o qeyd edib ki, Tehran Yaxın Şərqdə fəaliyyət göstərən terrorçu qruplaşmaları maliyyələşdirməməlidir. ABŞ İranın Suriyadakı bütün qüvvələrini çıxarmasını da istəyir.

M. Pompeo deyib ki, İran bu şərtləri qəbul edib siyasətini dəyişməsə, ona qarşı tarixin ən ağır sanksiyaları tətbiq ediləcək.

Qeyd edək ki, bu il mayın 8-də ABŞ prezidenti Donald Tramp ölkəsinin İranla nüvə proqramına dair imzalanmış razılaşmadan çıxdığını bəyan edib. Bu razılaşma Tehranın nüvə sahəsində fəaliyyətinin məhdudlaşdırılması qarşılığında BMT Təhlükəsizlik Şurası, o cümlədən ABŞ və Avropa İttifaqının tətbiq etdiyi sanksiyaların qaldırılmasını nəzərdə tutub.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

**Mayın 20-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Naxçıvan Muxtar Respublikası sahəsində düşmən tərəfinin növbəti təxribatının qarşısını alarkən, döyüş tapşırığını yerinə yetirən zaman Azərbaycan ordusunun hərbi qulluqçusu əsgər Tatarov Adil Əli oğlu şəhid olub.**

# Şəhidimizin dəfnində görünməmiş izdiham

**Şəhidin atası:** "Adil məzuniyyətə gələndə deyirdi ki, mən qəhrəman kimi qayıdacam, ya da bayrağımıza bükülüb gələcəyəm"











Şəhidimizin nəşi doğma elinə, Ağstafa rayonunun Qıraq Kəsəmən kəndinə gətirilib. Şəhid olan hərbi qulluqçumuzu Ağstafa sakinləri böyük izdihamla qarşılayıb və "Şəhidlər ölməz, Vətən bölünməz" şüarını səsləndiriblər.

"Oğlum "mən qəhrəman kimi qayıdacam, ya da bayrağa bükülüb gələcəyəm" deyirdi".

Bunu "Report"a şəhid Adil Tatarovun atası Əli Tatarov deyib.

**Şəhid atası bildirib ki, Adil Tatarov 3 ay əvvəl məzuniyyətə gəldiyi zaman bu sözləri söyləyibmiş:** "Oğlum vətənin keşiyində durmasından fəxr duyduğunu və düşmənin torpaqlarımızın hər qarışından çıxarılması üçün hər zaman döyüşə hazır olduğunu söyləyirdi. Adil məzuniyyətə gələndə deyirdi ki, mən qəhrəman kimi qayıdacam, ya da bayrağımıza bükülüb gələcəyəm".

**Ə.Tatarov oğlunun vətən uğrunda şəhid olmasından qürur duyduğunu bildirib:** "Hər kəs vətənini qorumalı, Vətən uğrunda savaşmalı və mənim övladım kimi şəhid olmaqdan qorxmamalıdır".

Qeyd edək ki, ailənin yeganə oğul övladı olan Adil Tatarovun hərbi xidməti başa vurmağına 4 ayı qalmışdı.

Şəhid Tatarov Adil Əli oğlu doğulduğu Ağstafa rayonunun Qıraq Kəsəmən kənd qəbiristanlığında torpağa tapşırılıb.

Şəhidin izdihamlı dəfn mərasimində ailə üzvləri ilə yanaşı Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Ağstafa Rayon İcra Hakimiyyətinin əməkdaşları, rayon ictimaiyyətinin nümayəndələri və sadə insanlar iştirak edib.

**Allah rəhmət eləsin!**

# Cümhuriyyət həftəsi başladı: hansı tədbirlər keçirilir?

**Fazil Mustafa:** "Daha fundamental işlər görülməli idi"
**Dilavər Əzimli:** "Sevindirici haldır ki, cümhuriyyətlə bağlı xarici ölkələrdə keçirilən tədbirlərin sayı artıb"

**Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə bir həftə vaxt qalıb. Cümhuriyyətimizin yaranmasının 100 illiyi ilə bağlı müxtəlif dövlət qurumlarında, təhsil müəssisələrində, ölkə xaricində tədbirlər keçirilir, bu şanlı tarixi hadisələrlə bağlı seminarlar təşkil olunur.**





Qeyd edək ki, ötən ilin may ayında prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında sərəncam imzalayıb. Həmin sərəncamda qeyd olunur:

"Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli dövlətçilik salnaməsini müstəsna dərəcədə zənginləşdirmiş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi respublikada dövlət səviyyəsində geniş qeyd edilsin.

Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

Azərbaycan Respublikasının Milli Məclisinə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin yaranmasının 100 illik yubileyi münasibətilə xüsusi iclasın keçirilməsi tövsiyə edilsin".

**"Yeni Müsavat"a danışan deputat Fazil Mustafa bildirib ki, görülən tədbirlər onu tam qane etmir:**

"Çünki daha fundamental işlər görülməli idi. Ancaq yenə də müəyyən işlərin görülməsi normaldır. Ən azından müxtəlif televiziyalarda verilişlərin verilməsi, o dövrün şəxsiyyətlərinin xatırlanması istiqamətində addımların atılması yaxşı haldır. Lakin bunu daha fərqli formada keçirmək imkanı vardı. Xüsusilə də Rəsulzadə irsinə, Nuru paşaya münasibətdə daha fərqli addımlar atılmalı idi ki, bu işlər görülməyib".

**Deputat hesab edir ki, belə bir məqamda xarici ölkələrdən çox ölkə daxilində tədbirlərin keçirilməsinə üstünlük verilməlidir:**

"Çünki cümhuriyyətə dəyər vermək bizim özümüzə lazımdır. Xaricdə tanıtım, təbliğat keçirilə bilər. Ancaq əsas Azərbaycanın daxilində insanlar bilməlidir ki, cümhuriyyətin dəyəri nədir. Bilməlidir ki, bu, təsadüfən alınmayıb, şəhidlərin qanı bahasına əldə olunub. Böyük mütəfəkkirlərimiz Cümhuriyyətin meydana çıxması üçün xeyli işlər görüblər. Azərbaycan vətəndaşı bunu anlamalıdır. Ona görə də tədbirlərin ölkə daxilində keçirilməsi daha önəmlidir".

**"Yeni Müsavat"a danışan tarixçi Dilavər Əzimli isə bildirib ki, xaricdə və daxildə keçirilən tədbirlər eyni səviyyədə olmalıdır:**

"Sevindirici haldır ki, cümhuriyyətlə bağlı xarici ölkələrdə keçirilən tədbirlərin sayı artıb. Bildiyimə görə, ABŞ-ın iki ştatında, Avropada xeyli tədbirlər keçirilir. Qardaş Türkiyədə də həmçinin tədbirlər baş tutur. Türkiyə ilə Azərbaycanı ayırmıram. Ancaq Avropa ilə Amerikada ötən illərə nisbətdə cümhuriyyətimizlə bağlı tədbirlərin sayının artması müsbət haldır. Bu, bizim üçün mühüm əhəmiyyət kəsb edir. Çünki artıq görürlər ki, 20-ci əsrin əvvəllərində demokratiyaya görə dünya dövlətlərini üstələyən cümhuriyyət qurulub. Bunun söykəndiyi prinsipləri Avropa dövlətləri sonradan mənimsədilər. Burada təmsil olunan şəxsiyyətlər onları valeh etdi. Məsələ ilə bağlı Avropa qəzetləri xeyli sayda yazılar dərc etdilər. Bildirdilər ki, bu şəxsiyyətlər çox demokratik dəyərləri özündə əks etdirən təfəkkürə malikdirlər, yüksək intellektual səviyyəli insanlardır. Bütün hallarda bizim mütəfəkkirlər keçmiş Rusiya ərazisində olan demokratik ruhlu şəxsiyyətləri üstələyirdilər. Həmin şəxsiyyətlərimizin təbliği hesab edirəm ki, Azərbaycanın imicinə müsbət uğurlar gətirir. Tarixi nəticəni unutmaq olmaz".

**Dilavər Əzimli bildirib ki, ölkədə keçirilən tədbirlər ötən illərlə müqayisədə yüksələn xətt üzrə davam edir:**

"Ancaq deyə də bilmərəm ki, tədbirlər məni tam qane edir. Bir məsələ var ki, cəmiyyətimiz iki sistem arasında döyüşür. Cümhuriyyət təfəkkür sistemi və buna qarşı hələ də yaşayan bolşevik təfəkkürü. Hazırda cümhuriyyət təfəkkür sistemi üstünlük təşkil edir. Təəssüf ki, bizim hələ də idarəetmədə olanların içərisində bolşevik təfəkkürlü insanlar var. Biz bu yolların hamısını keçəcəyik. Əminəm ki, zaman gələcək ən möhtəşəm tədbirlər keçiriləcək. Bu gün milli qüvvələr cəmiyyətimizin hər tərəfində olsa da, hələ onlar zəifdir. Ancaq proses bolşevik, sovet təfəkkürünün tamamilə sıradan çıxması istiqamətində gedir. Bu təfəkkür sıradan çıxandan sonra biz istəyimizə nail olacağıq. İnanıram ki, yaxın müddətlərdə cümhuriyyətimizlə bağlı keçirilən tədbirlər məni tam qane edəcək. Çünki bu 100 illik böyük rəqəmdir. Ancaq bunun 101, 102 yaşı da layiqli qeyd olunmalıdır. Ona görə ki, bu, bizim milli dövlətimizdir. Bu milli dövlətdən yapışmaqla biz çox şeyə nail ola bilərik. Gürcü menşevik, erməni daşnak dövləti idi. Azərbaycan Xalq Cümhuriyyəti isə milli dövlət idi. Məhz bu milli dövlət bizə imkan verir ki, İran-fars şovinizminin qarşısına çıxaq. Deyəndə ki, Azərbaycan adlı dövlət olmayıb, biz bildirək ki, olub və tarixi də 1918-ci ildən başlayır. Onların özlərinin isə həmin dövrdə heç bir milli dövlətləri olmayıb. Olanların hamısı dini dövlətlər olub. Bayram münasibətilə keçirilən tədbirlər adi tədbirlərdir. Yəni 10 illik, 100 illik kimi keçirilir. İkinci Dünya müharibəsində döyüşənlər də 10 illikləri böyük tədbirlərlə keçirirlər. Ancaq Cümhuriyyətlə bağlı milli dövlət zəminindən olan yanaşma ortaya qoyulmalıdır ki, 20-ci əsrin əvvəllərində biz milli dövlət ortaya qoyduq. Bu milli dövlətə qarşı isə dünyanın bütün gücləri birləşdirlər. O cümlədən də bizim torpaqlarımızı da erməni daşnaqlarına, qonşu dövlətlərə verdilər. Milli dövlətin ortaya qoyduğu xəritədən yapışmalıyıq. Bütün bunları anlayıb tədbirlər keçirilərsə, bu, daha möhtəşəm olar".

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**

# Üç müavini Arif Hacılını niyə tərk etdi...

## Müsavat başqanı qurultay öncəsi çətin durumda

**Xəbər verildiyi kimi, Müsavat Partiyası başqanının müavini Yadigar Sadıqov bu postdan istefa verib. O, istefasına səbəb kimi başqan Arif Hacılı ilə aralarında fikir ayrılığının olmasını göstərib. Y.Sadıqov bundan sonra partiyada Divan üzvü olaraq fəaliyyətini davam etdirəcək.**

Onun istefası bəzi məsələləri yenidən aktuallaşdırmaqla yanaşı, bir sıra iddialara da yol açıb. Məlumdur ki, Müsavatın 2014-cü il sentyabrın 27-də keçirdiyi qurultayın bu il 4 ili tamam olur və partiya növbəti qurultayını keçirməlidir. Çünki Müsavat nizamnaməsinə görə, başqan 4 ildən bir seçilməlidir. Bunları nəzərə alsaq, partiyanın bu ilin sonlarına qədər qurultaya gedəcəyi real görünür. İndiki şəraitdə A.Hacılının qurultay keçirməkdə istəkli olduğu barədə iddialar səslənir. Başqanın hazırda partiya daxilindəki nüfuzuna alternativin olmadığını anlayaraq, 2014-cü ildəki namizədliyi zamanı yaşadığı şokun bir daha təkrarlanmaması üçün tezbazar növbəti 4 ildə də Müsavat başqanı olmaq istədiyi deyilir. Onun partiya daxilində şəxsinə qarşı müxalifət formalaşdığını görüb, bunun güclənməməsinin qarşısını yalnız qurultay keçirməklə ala biləcəyi vurğulanır.

Məhz son istefaların da bu məsələlərdən doğduğu bildirilir. Məlumdur ki, A.Hacılını bir az öncə tərk edən onun müavini, Divan üzvü Elman Fəttah olub. Partiya funksioneri ötən ilin dekabrında müavinlikdən gedərək, Divan üzvü kimi fəaliyyətini davam etdirəcəyini açıqlayıb. E.Fəttah da o zaman istefasına səbəb kimi başqanla aralarında olan fikir ayrılığını göstərmişdi.

E.Fəttahın istefasından iki ay ötməmiş A.Hacılı keçmiş siyasi məhbus, partiyanın Divan üzvü Tofiq Yaqublunu müavinliyindən azad etdi. T.Yaqublunun açıqlamalarından aydın olmuşdu ki, onun Milli Şura üzvü olaraq qalması Müsavat başqanını təngə gətirmiş, sonunda belə bir qərarın verilməsi ilə nəticələnmişdi.

Redaksiyamıza daxil olan məlumata görə, Müsavat daxilində adıçəkilən keçmiş başqan müavinlərindən ibarət A.Hacılıya qarşı qurultay qabağı ciddi bir müxalifət formalaşır və getdikcə güclənir. Bu proseslərdə T.Yaqublunun yaxın qohumu, Divan üzvü Alya Yaqublunun da fəal iştirak etdiyi bildirilir. Məlumatlardan biri də odur ki, bu qruplaşmadan A.Hacılıya qurultayda rəqib çıxarılacaq. Başqanlığa namizəd qismində bu rəqibin T.Yaqublu olacağı bildirilir. Narazıların onun ətrafında birləşəcəyi real görünür. İstefa verən funksionerlərin Divan üzvlüyündən getməmələrinin səbəblərindən birinin də bu olduğu göstərilir.

Müsavat başqanlığına keçmiş namizəd, ADR hərəkatının rəhbəri Qubad İbadoğlunun hələ də partiyada qalan tərəfdarlarının T.Yaqubluya dəstək olacaqları gələn xəbərlər sırasındadır. Bu məlumat kifayət qədər əsaslı görünür. Çünki 2014-cü ildə həbsxanadan T.Yaqublu başqanlıq seçkilərində Q.İbadoğluna açıq şəkildə dəstək vermişdi.

Rayon təşkilatlarında da narazıların hərəkətə keçdiyi, üzvlərlə danışıqlar apardıqları barədə də mənbələrdən "Yeni Müsavat"a məlumatlar daxil olub.

Artıq qruplaşma rəhbərləri Müsavat başqanına mesajlar ünvanlanmağa başlayıblar. Belə ki, Cümhuriyyətimizin yüz illiyi ilə bağlı Türkiyədə keçiriləcək yubiley tədbirlərində iştirak etmək üçün Müsavat rəhbərliyindən T.Yaqublu, E.Fəttah, Y.Sadıqov və A.Yaqublu ayrıca yola düşüblər. Bunu öz facebook profillərində paylaşdıqları fotolarla əyan ediblər. Bir növ özlərini Müsavat rəhbərliyinə alternativ kimi göstəriblər.

Cərəyan edən bu proseslər onu göstərir ki, Müsavatı 4 il öncəki kimi çətin bir qurultay gözləyir. 4 il öncə üç qruplaşma arasında gərgin keçən mübarizənin bu il təkrarlanacağı, partiyadan növbəti qopmaların olacağı istisna edilmir...

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Novruz Məmmədovun ilk bir ayı

## Yeni baş nazir kimi onun imzaladığı sənədlərin sayı 50-dən yuxarıdır; N.Məmmədov ABŞ konqresmenlərinə Cümhuriyyət tariximizdən danışıb

**Azərbaycanda baş nazir dəyişikliyindən bir ay ötdü. Artıq bir aydır ki, Nazirlər Kabinetinə Novruz Məmmədov rəhbərlik edir. Yeni baş nazirin rəhbərliyi altında Nazirlər Kabinetinin hansı işləri gördüyünü müəyyənləşdirməyə çalışdıq.**

Nazirlər Kabinetinin saytında yer alan məlumatlardan aydın oldu ki, yeni baş nazirin imzaladığı ilk qərarlar 27 aprel 2018-ci il tarixindən başlayır. Həmin gün N.Məmmədov 4 qərar imzalayıb: "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində müvəqqəti olma müddətinin uzadılması, müvəqqəti və ya daimi yaşamaq üçün icazənin, ocümlədən iş icazəsinin verilməsi (və ya müddətinin uzadılması) üçün ərizə-anket nümunələrinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 7 fevral tarixli 40 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında"; "Mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsinə və onun şərtlərinin gözlənilməsinə nəzarət Qaydaları"nın və "Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsi üçün tələb olunan əlavə Şərtlər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 8 may tarixli 120 nömrəli qərarında dəyişikliklər edilməsi



barədə"; "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 iyul tarixli 263 nömrəli qərarı ilə təsdiq edilmiş "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları"nda dəyişikliklər edilməsi barədə" və "Tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə qoşulmasına görə qoşulma haqqı məbləği"nin təsdiq edilməsi barədə".

Ondan bəri baş nazir kimi N.Məmmədovun imzaladığı sənədlərin sayı 50-dən yuxarıdır.

Bir ay ərzində yeni baş nazir hələ ki mətbuatla canlı təmasa girməyib. Bu baxımdan, onun yeni postunda media ilə ünsiyyətinin necə olacağını söyləmək çətindir.

N.Məmmədovun baş nazir kimi keçirdiyi görüşlərə gəlincə, müxtəlif hökumət təmsilçiləri ilə gündəlik görüşlərindən kənarda, Nazirlər Kabinetinin mətbuat xidmətinin yaydığı yalnız bir görüş barədə məlumat var. Belə ki, mayın 3-də baş nazir ABŞ Konqresinin nümayəndə heyəti ilə görüşüb. Görüşdə N.Məmmədov səfərin ikitərəfli münasibətlərin inkişafı ilə bağlı məsələlər ətrafında müzakirələr aparmaq üçün yaxşı fürsət olduğunu deyib. Eyni zamanda ABŞ-Azərbaycan münasibətlərindən, Dağlıq Qarabağ münaqişəsi və qaçqın problemindən danışıb. Təqdirəlayiq haldır ki, baş nazir amerikalı qonaqlara Cümhuriyyət tariximizlə bağlı da məlumat verib. Bildirib ki, 1918-ci ildə müstəqilliyini elan etmiş, Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin bu il 100 illik yubileyi qeyd olunacaq.

Göründüyü kimi, yeni baş nazirimizin bir aylıq fəaliyyət dövrünün gərgin keçdiyini söyləmək mümkün deyil. Eyni zamanda tam fəaliyyətsizlik kimi də qiymətləndirmək olmaz.

❑ **DÜNYA,**
**"Yeni Müsavat"**

# İnam Kərimovun yeni təyinatı keçmiş bankir oldu

## Ekspert: "İnam Kərimova ən çətin sahələrdən biri həvalə olunub"

**Kənd təsərrüfatı naziri təyin olunan İnam Kərimov elə vəzifəsinin icrasına başlar-başlamaz bölgələrə üz tutub, fermerlərlə, sahibkarlarla görüşdü. Yeni nazirin ilk səfəri aprelin 30-da "Aqrolizinq" ASC-yə oldu və o, burada qurumun fəaliyyəti və əməkdaşlarının iş şəraiti ilə tanış oldu. Həmin ərəfədə nazirliyin mətbuat xidməti məlumat yayaraq bildirdi ki, İ.Kərimov daha sonra kənd təsərrüfatı texnikalarını lizinqə götürmək üçün "Aqrolizinq" ASC-yə müraciət edən fermer və sahibkarlarla da görüşərək onlarla ətraflı söhbət aparıb.**

İstifadəçiləri diqqətlə dinləyən nazir onların qarşılaşdıqları çətinliklər, aradan qaldırılması istiqamətində təkliflərlə maraqlanıb. Bir neçə fermer kənd təsərrüfatında yeni texnologiyaların tətbiqi, o cümlədən qarabaşaq istehsalında istifadə olunan texnikaların, yeni gübrə növlərinin gətirilməsi barədə təkliflərini, həmçinin taxıl biçini zamanı kombaynların istifadəsinə dair istəklərini bildiriblər.

**Jurnalistlərə açıqlamasında İnam Kərimov bildirib ki, "Aqrolizinq" ASC yeni yanaşma prinsipi əsasında fəaliyyət göstərəcək:** ""Aqrolizinq"də düzgün idarəçiliyin bütün prinsipləri-şəffaflıq, səmərəlilik tam təmin ediləcək. "Aqrolizinq" ASC Kənd Təsərrüfatı Nazirliyinin digər strukturları kimi öz işini fermer və kəndlinin yanında olması prinsipi əsasında quracaq".



Bütün bunların fonunda nazir mayın 20-də Kənd Təsərrüfatı Nazirliyi yanında "Aqrolizinq" ASC-yə sədr müavini təyin edib. Onun sədr müavini kimi təyin etdiyi şəxs Mehman Məmməd oğlu İsmayılovdur. Mehman İsmayılov bundan əvvəl "Kapital Bank" ASC-nin departament direktoru, hazırda ləğv prosesində olan "Texnika Bank" ASC-nin Audit Komitəsinin sədri, "Bank of Azerbaijan" ASC-nin Müşahidə Şurasının sədri, eləcə də Azərbaycan Mərkəzi Bankının şöbə müdiri vəzifələrində çalışıb.

Lakin adı mətbuat səhifələrində müxtəlif formalarda hallanan bankların rəhbər vəzifələrində çalışsa da, Mehman İsmayılovla bağlı hansısa mənfi informasiya yayılmayıb. Hətta bank sahəsi üzrə ekspertlər də onu mənfi və ya müsbət fonda dəyərləndirməkdə çətinlik çəkirlər.

**"Yeni Müsavat"a danışan bank məsələləri üzrə ekspert Əkrəm Həsənov bildirib ki, indiyə kimi "Aqrolizinq"in fəaliyyəti elə də hiss olunmayıb:**

"Kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən bu kimi şirkətlərin, Sahibkarlığa Kömək Milli Fondunun indiyə kimi sahibkarlığa, kənd təsərrüfatına real köməyini görməmişik. Ancaq ümumən İnam Kərimova etimad böyükdür. Mən də onun özünü şəxsən tanımasam da etimadım yüksəkdir. Ən azından Azərbaycanda ən effektiv dövlət qurumu olan "ASAN xidmət"in rəhbəri olub, oradan gəlib. Ümid edək ki, o, elə məsləhət bilibsə, doğrudan da Mehman İsmayılov həmin vəzifəyə layiqdir. Yəqin ki, onun təyinatı aqrolizinqlə bağlı müsbət nəticələrə səbəb olar. Əlbəttə ki, bu, çətin sahədir. İnam Kərimova bu dəqiqə ən çətin sahələrdən birini tapşırıblar. Çünki Azərbaycanın bu gün həqiqətən də kənd təsərrüfatına böyük ehtiyacı var".

**Mehman İsmayılovun əvvəl çalışdığı banklara gəlincə isə ekspert aşağıdakıları söyləyib:**

"O, "Kapital Bank"da departament müdiri vəzifəsində çalışıb. Deyim ki, ümumi yanaşdıqda Azərbaycan şəraitində bu bank ən sağlam banklarımızdan biridir. Ancaq bu da özü özlüyündə bir göstərici deyil. Çünki hətta hansısa pis bankın yaxşı əməkdaşı ola bilər. Ola da bilər ki, bank yaxşıdır, ancaq əməkdaşı pisdir. Bu baxımdan yanaşdıqda onun haralarda işləməsi elə də böyük göstərici deyil".

Onu da qeyd edək ki, İnam Kərimov nazir vəzifəsinə təyin olunduqdan sonra bir neçə təyinatlar edib, öz komandasını formalaşdırıb. Onun komandasının üzvləri isə əslində "ASAN xidmət" sədri olduğu zaman çalışdığı kollektivin üzvləridir. Belə ki, İnam Kərimovun müvafiq əmri ilə Sarvan Cəfərov nazirin köməkçisi vəzifəsinə təyin olunub. Sarvan Cəfərov "ASAN xidmət"də də sədrin köməkçisi vəzifəsində çalışırdı.

İ.Kərimovun daha bir əmri ilə İlhamə Qədimova nazirliyin hüquq şöbəsinin müdiri təyin olunub. İ. Qədimova "ASAN xidmət"də Hüquqi təminat şöbəsinin müdiri vəzifəsində çalışıb. Nazir 3 saylı Bakı "ASAN xidmət" Mərkəzinin direktoru Seymur Mövlayev, 5 saylı Bakı "ASAN xidmət" Mərkəzinin direktoru Adil Qasımov, "ASAN xidmət"in İnsan resursları və təlim şöbəsinin müdiri Elvin Paşayev, Nəzarət və qiymətləndirmə şöbəsinin müdiri Aqil Quliyevə də nazirlikdə vəzifə verdi. Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidmətinə də yeni rəis təyin edilib. Mirzə Əliyev bundan əvvəl "Azərbaycan Dəmir Yolları" QSC-də, "Kapital Bank" ASC-də, BTM-nin Cenevrədəki (İsveçrə) ofisində çalışıb. İnam Kərimov həmçinin nazirliyin mətbuat xidmətinin rəhbərliyinə də əvvəllər "ASAN xidmət"də eyni vəzifəni daşıyan Anar Hüseynovu gətirdi.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 111 (7000) 22 may 2018

**İşıq sürəti ilə keçdi... desək, çoxu inanmayacaq. Sanki dünən idi yazsaq, mübaliğə etdiyimizi düşünəcəklər. Amma inanın ki, "Yeni Müsavat"ın 6000-ci sayını hazırladığımız gün əksər detalları ilə yadımdadır. Redaksiyaya gəlib bizi təbrik edən siyasətçilər, müsahibə alan, reportaj hazırlayan kolleqalar, həmin sayı əlamətdar etmək üçün seçilən mövzular. 2014-cü ilin yağışlı bir noyabr günü... Kim deyir ki, illər çox yavaş keçir?**





# Kommunizmə qarşı müsavatizmi gətirənlərin 7000-ci işığı

## "Yeni Müsavat" qəzetinin 7000-ci sayı işıq üzü gördü

**Rauf Arifoğlu:** "Düşünün ki, 23 yaşında ki, mən bu qəzeti qurdum, üstünə 29 il gələndə mənim üçün artıq 52-ci yaş günü deməkdir. Bir gənci qocaldacaq, ağsaçlı bir qocaya çevirəcək bir zaman keçib üzərimizdən"

Bəli, bu gün ölkənin ən oxunaqlı və ən uzunömürlü qəzetlərindən olan "Yeni Müsavat"ın 7000-ci sayı nəşr olunur.

"Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğlu 7000-ci sayla bağlı danışdı. İlk gündən qəzetlə birgə addımlayan, redaksiyada onun ilk nəşrindən etibarən yanında olan yeganə adam. "7000-ci say..." deyirəm, dördrəqəmli bir göstəriciyə günlər qala onun həyəcanını yaşayıbmı deyə maraqlanıram. Amma məlum olur ki, bu cür rekordlar, bu cür böyük rəqəmlər "Yeni Müsavat"ın da, R.Arifoğlunun da həyatında çox olduğu üçün bir qədər adiləşib: "O qədər ilklər, rekordlar yaratdıq, o qədər rəqəmlər, tarixlər devirdik ki, artıq heç nə əlamətdar, həyəcanlı gəlmir. Sadəcə, o rəqəmi ilin günlərinin sayına böləndə ortada 20 il kimi bir zaman yaranır.

7000 say o deməkdir ki, bu rəqəmə çatmaq üçün dayanmadan, gündəlik rejimlə 20 il qəzet çap eləməli idik. Hansı ki, 29 il öncə, bu qəzetin əsası qoyulanda Azərbaycanda sovet rejimi vardı və biz indi 7000-ci sayını hazırladığımız qəzeti gizli yaratmışdıq. Kommunizmə qarşı ölkəmizə müsavatizmi qaytarırdıq, buna cəhd edirdik.

Qəzeti və "Yeni Müsavat" adlı partiyanı da bu iddia ilə yaratmışdıq; bugünkü Müsavat Partiyasının ilk adı idi AMDP "Yeni Müsavat". Gizli olmağımız səbəbindən, ilk iki ildə ancaq 17 sayımızı dərc edə bildik. 1991-ci ildə Azərbaycan müstəqil oldu və biz rəsmi qəzet statusu qazandıq: lakin o zaman da dövriliyimiz aşağı idi. Ayda cəmi iki dəfə çıxa bilirdik. Biz gündəlik rejimə 2001-ci ilin aprel ayından keçə bildik. Həftədə 7 dəfə! Postsovet məkanında bir ilk idi. İndi də həftədə 7 dəfə çıxan qəzet yoxdur, səhv etmirəmsə, postsovet məkanında... Buna qədər isə 1998-ci ildən başlayaraq, həftədə 6 dəfə çıxırdıq.















7000-ci saya qəzetimizin 29-cu yaş ilində vara bildik. Bu özü də nəhəng bir rəqəm deməkdir. Düşünün ki, 23 yaşında ki, mən bu qəzeti qurdum, üstünə 29 il gələndə mənim üçün artıq 52-ci yaş günü deməkdir. Bir gənci qocaldacaq, ağsaçlı bir qocaya çevirəcək bir zaman keçib üzərimizdən".

**R.Arifoğlu bildirdi ki, bu cür tarixi yazdığına, yaratdığına, bu qədər zamanı şərəflə arxada qoyduğuna, bu qədər sayı oxuculara yetirdiyinə görə xoşbəxtdir:** "Bütün qəzet oxuyanları, o cümlədən "Yeni Müsavat"ı, saytlarımızı oxuyan hər bir kəsi, bu qəzetdə işləyib, dünyasını dəyişmiş hər bir həmkarımızı şəfqətlə, mərhəmətlə, rəhmətlə, minnətlə anıram".

**Baş yazar bildirdi ki, bu gün bizim üçün sıradan bir iş günüdür və kollektiv 7 mininci sayını hazırlayır. Kollektivdə xeyli yeni əməkdaşların olduğunu deyən R.Arifoğlu maraqlı bənzətmə də apardı:** "Bir xeyli yeni əməkdaşımız var. Onların arasında yaşı qəzetin yaşından kiçik olanlar da var. Bu, özü də böyük xoşbəxtlikdir. Nəsillər dəyişir. Biz yerimizdə, yolumuzdayıq, davam edirik. Mən isə yeganə baş redaktoram ki, qəzet qurub, 29 il dayanmadan onu idarə edirəm".

Müsahibimiz qəzetin 1000-ci sayının nəşrini xatırlatdı. İllərdən 1999-cu il, "Yeni Müsavat" indiki tarixin yeddidə birini yaşayır... Tədbirdə mərhum prezident Əbülfəz Elçibəy, Müsavat Partiyasının həmin dönəmdəki başqanı İsa Qəmbər iştirak edirlər...

**"Yeni Müsavat" qəzeti baş redaktorunun 1-ci müavini Azər Ayxan bildirdi ki, "Yeni Müsavat" Azərbaycan tarixinin ən dürüst və güzəştsiz parçasıdı:** "Gələcək nəsillər bu qəzeti vərəqləyib, ölkələrində gedən proseslər haqda detallı və obyektiv bilgi əldə edə biləcəklər. Biz hər gün tarix yazırıq. Bu, kifayət qədər iddialı səslənir. Amma nə qədər təvazökarlıq, ya da lovğalıq etsək də, gerçək belədi. Jurnalist, qəzetçi təkcə bu gün üçün işləmir - o, 10 illər, hətta 100 illər sonraya iz qoyur. Belə tarixi prosesdə iştirak etdiyim üçün özümü şanlı biri sayıram. Yazı qədər tarixdə təsirli iz buraxan ikinci bir amil yoxdu. "Yazıya pozu yoxdu" misalı var. O, daha çox insan taleyi ilə, alın yazısı ilə bağlı deyilir. Əslində "Yeni Müsavat" bizim taleyimizdir, alın yazımızdı. Bu qəzetə görə tarixdə alnı açıq, üzü ağ qala biləcəyimiz inancındayam. İnsanın adı anadan olandan sonra pasportuna, doğum şəhadətnaməsinə, öldükdən sonra da məzar daşına yazılır. Bizim adımızın yazıldığı üçüncü ünvan var - "Yeni Müsavat" qəzeti. Bu da hər Allah bəndəsinə nəsib olmayan gözəl taledi. Bu tarixi günlə bağlı Rauf Arifoğlunu və bütün kollektivi təbrik edirəm. Təbrikdən vaxtilə "Yeni Müsavat"da imza qoyan həmkarlarıma, dostlarıma da pay düşür. Həmçinin oxuculara da".



**"Yeni Müsavat" qəzetinin baş direktoru Ələsgər Süleymanov bu böyük tarixin fərqinə varmadan ondan da böyük bir prosesin içində olduğumuzu dedi. "Yanımızdan, böyür-başımızdan tarix axıb gedir və fərqində də deyilik" deyən müsahibimiz vurğuladı ki, bu önəmli çarxın dönməsində bizim də hardasa kiçik də olsa əziyyətimiz var:** "Bəlkə bunun dəyərini indi o qədər də dərk etmirik, qiymətini bilmirik. Mən internetdə kiçik bir araşdırma apardım. Azərbaycanda bu günə qədər 7 mininci sayını çıxaran iki qəzet olub ki, onlardan biri də idman qəzetidir. Digəri rəsmi dövlət qəzeti olan "Azərbaycan" qəzeti isə Cümhuriyyət dönəmində çıxan eyniadlı qəzetin davamı olaraq, o dövrdə çıxan sayları da üstünə gələrək, tarixə yazılıb. Birinin 86, digərinin 100 yaşı var. Biz də 28.5 ildə 7 mininci sayımızı buraxırıq. Çox böyük nailiyyətdir. Bu günlərə gəlib çıxmağımıza görə şükürlər olsun. İndiki çap mediasının ağır günlərində buna nail ola bilmək böyük göstərici, uğurdur. Allah eləsin ki, bundan sonra yubiley yaşlarını qeyd etmək, 10 mininci sayı buraxmaq nəsib olsun. Başda Rauf bəy olmaqla, "Yeni Müsavat" qəzetinin bütün kollektivini təbrik edirəm, özüm də içində olmaqla. Oxucularımızı təbrik edirəm, onlara minnətdaram ki, bu günə qədər bizi alıb oxuyublar, qoruyub saxlayıblar".

**Ə.Süleymanov dedi ki, R.Arifoğlunun xüsusi istedadı, əməyi və idarəçilik qabiliyyəti sayəsində qəzet bu günlərə qədər gəlib çatıb. Onun sözlərinə görə, həbslərdən, məhkəmə proseslərindən keçən "Yeni Müsavat"ın üzərinə bu illər ərzində çoxsaylı hücumlar olub:** "Rauf bəy bunların hamısını ötüşdürüb və bu günlərə qədər saxlayıb. Həmin siyasi, həm də iqtisadi mənada etdiyi manevrlər hesabına qəzet bu günlərə qədər gəlib çatıb. Bizlə eyni startda başlayan neçə-neçə qəzetlər artıq media bazarında qalmayıb, bağlanıb, pərən-pərən olub. "Yeni Müsavat" qəzeti isə bu günə qədər də öz monolitliyini qoruyub saxlayıb. 7 min nömrənin buraxılışında yüzlərlə jurnalist əməyi var. Hansı ki, vaxtilə "Yeni Müsavat" qəzetində, indi başqa yerlədə işləyirlər, başqa yerdə yaşayırlar. Onları da təbrik edirəm, gözləri aydın olsun. Bu günə qədər "Yeni Müsavat"da işləyənləri və bundan sonra da işləyəcəkləri təbrik edirəm".

❑ **Sevinc TELMANQIZI,**
**Musavat.com**

Yeni Müsavat
N 111 (7000) 22 may 2018



# Şərikli nazir

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Təxminlər doğrulmadı. Putin erməni kökənli Sergey Lavrovla yolunu ayırmadı. Lavrov-Kələntərov yenə xarici işlər naziri postunda saxlandı. Bununla da Kreml başçısı böyük siyasətdə onunla daha 6 il birgə yürümək niyyətini ortaya qoydu. Bu, o deməkdir ki, Putin Lavrovdan razıdır, o cümlədən Cənubi Qafqaz, Azərbaycan, Qarabağ məsələsində onun işini, fəaliyyətini bəyənir.**

Söz yox ki, Rusiyanın xarici siyasətinin əsas istiqamətlərini prezident müəyyən edir. Amma buna da şübhə yox ki, həmin siyasətin regiona, Azərbaycan yönəlik kursuna ermənilərin Rusiyadakı "boz kardinalı" Lavrov məxsusi "ermənilik", "erməni ədviyyatı" qatır. Faktlar nə qədər istəyirsən.

Birinci elə Rusiya XİN-də kök salmış ermənilər - hansılar ki, xarici siyasətin qurulmasında və həyata keçirilməsində bilavasitə iştirak edirlər. Onlardan biri - Levan Caqaryan illərdir mühüm cənub qonşumuz olan İranda Rusiyanı təmsil edir, səfirdir və vaxtaşırı anti-Türkiyə, anti-Azərbaycan açıqlamaları ilə çıxış edərək, Rusiyanın Türkiyə və Azərbaycanla arasını vurmağa çalışır.

Demək, erməni kadrlara, onların Rusiya XİN-də daha da kök salmasına, yüksəlişinə ən azı, 6 il təhlükə gözlənilmir. Eyni qaydada Azərbaycan əsilli kadrların, diplomatların Rusiya XİN-də iş tapması və ya yüksəlməsi istisnadır.

Yeri gəlmişkən, Lavrov az öncə hətta Georgi Zuyev ad-soyadlı ermənipərəst birisini Azərbaycana səfir qismində sırımaq istəyirdi. Plan alınmadı, hamı bilir. Fəqət, bu qəbildən cəhdlərin davamı istisna deyil. Lavrov artıq Putindən kart-blanş alıb.

Yəni məsələ təkcə erməni kimliyində də deyil. Lavrov rus millətindən olanları da "erməni virusu"na yoluxdura, öz tərəfinə çəkə bilir. XİN-in məşhur sözçüsü, ermənilərə şəxsi simpatiyasını heç vaxt gizlətməyən, Lavrovun "danışan dili" sayılan Mariya Zaxarova da o qəbildəndir.

İkincisi, "Dağlıq Qarabağda müharibə yalnız Azərbaycanın daxili ili deyil" kimi avantürist, ölkəmizin suverenliyi və ərazi bütövlüyünə həqarət xarakterli bəyanat da onun - Lavrov-Kələntərovundur. Həmin bəyanatı o, verməyə bilərdi. Ancaq Azərbaycana hədə kimi, daha çox bir erməni olaraq səsləndirməyi özünə borc bildi.

Erməni xislətinin başqa parlaq təzahürü: ötən il Ermənistanda olan Lavrov Türkiyə ilə sərhədə Ağrı dağı (ermənilər "Ararat" deyir və özlərinki sayır) fonunda şelfi çəkərək Facebook səhifəsində qoymuş, "Ararat" sözünü yazmışdı. Yəni ki, Ermənistanın Türkiyəyə qarşı əsassız torpaq iddiası məsələsində bir erməni kökənlisi olaraq yanınızdayıq.

Əslində Lavrov Ermənistanın da xarici işlər naziridir. Bir növ şərikli nazir kimi yəni. Vassal ölkəyə xarici siyasət nə gərək ki? Onsuz da Ermənistanla bağlı həlledici qərarlar Kremldə, Rusiya XİN-də verilir *(guya Paşinyan indi bu tilsimi qırmağa çalışır).*

Bütün bu faktlara Azərbaycan prezidentinin Soçidə Putinlə son təkbətək görüşü zamanı məhz Lavrova işarə vuraraq, "Rusiyada Azərbaycanla münasibətləri korlamağa çalışan qüvvələr var" söyləməsini əlavə edək...

Bunları niyə qeyd elədik. Ona görə ki, yaxşı-yaxşı yadda saxlayaq ki, sabah Azərbaycan əz torpaqlarını hərbi yolla azad eləməyə başlasa, məhz Sergey Lavrov Azərbaycan əleyhinə informasiya savaşında öndə gedəcək, işğalçı ölkəyə ikiqat dəstək olacaq, Putinin mövqeyinə təsir etmək üçün dəridən-qabıqdan çıxacaq. Əsl erməni xislətini büruzə verəcək.

Amma onun yerinə Azərbaycana, qardaş Türkiyəyə münasibətdə neytral mövqedə duran, bu münasibətlərə psixoloji diskomfort yaratmayan birisi də gətirilə bilərdi. Deməli, Putin Türkiyə və Azərbaycanla əlaqələrin ondan ötrü nə qədər önəmli saydığını desə də, sonadək Bakı və Ankaraya etibar eləmir, yenə erməniləri özünə "bir köynək" yaxın sayır. 68 yaşlı Lavrovun öz vəzifəsində saxlanmasının bir anlamı, sirri də budur.

Bu vəziyyətdə Azərbaycan və Rusiya liderlərinin şəxsi münasibətləri, eləcə də Rusiyada Azərbaycan faktorunun güclənməsi bundan sonra ikiqat əhəmiyyət kəsb edəcək. Bilirik, beş barmağımızın beşini də bal edib ağzına soxsaq, yenə pravoslav rus qriqoriyan erməni qədər bizi sevməyəcək. Buna rəğmən, mümkün olanları yapmalıyıq. Birdən möcüzə oldu...

**ABŞ prezidenti Donald Trampın İranla nüvə danışıqlarını dayandırmaq qərarı dünya gündəminin bu qalmaqala cəmləşməsinə səbəb oldu. İranla ABŞ arasında yaranan növbəti gərginlik aprelin əvvəlində sonuncunun Rusiyaya qarşı tətbiq etdiyi yeni sanksiyaları sanki arxa plana keçirdi. Düzdür, ABŞ sanksiyalarına məruz qalan Rusiya sənayesi, oliqarxları onun təsirlərini getdikcə daha sərt şəkildə hiss etməkdədirlər. Lakin İran problemi aktuallaşandan bu məsələ gündəmdən kənarlaşmış oldu. Belə ki, apreldə açıqlanan sanksiyaların davamı olacağı deyilsə də, hələ ki bu barədə ciddi bir açıqlamaya rast gəlinmir. Bu, ABŞ-ın Rusiyaya qarşı sanksiya planlarından geri çəkilməsidir, yoxsa proses davam etdirilir?**

# ABŞ Rusiyaya qarşı sanksiyalar planından çəkildimi...

## Şahin Cəfərli: "Tramp Rusiyaya qarşı sanksiyaları ağırlaşdırmaqda o qədər də həvəsli və istəkli görünmür"



**Politoloq Şahin Cəfərli** deyir ki, ABŞ-ın Rusiyaya qarşı istər Obama dövründə, istərsə də Tramp seçildikdən sonra tətbiq etdiyi sanksiyalar qüvvədədir və hazırda işləyir: "2017-ci ilin iyulunda Konqres "Amerikanın düşmənlərinə sanksiyalar vasitəsilə müqavimət göstərmək haqqında Akt" *(Countering America's Adversaries Through Sanctions Act - CAATSA)* qəbul edib. Tramp tərəfindən həmin ilin avqustunda imzalanaraq qüvvəyə minən bu qanunda Rusiya, İran və Şimali Koreyaya qarşı yeni sanksiyaların tətbiqi əksini tapıb, eyni zamanda Obama dövründə prezidentin sərəncamları əsasında qəbul olunmuş sanksiya qərarları qanunlaşdırılıb. Prezident Konqresin razılığı olmadan həmin sərəncamları ləğv edə bilməz.

CAATSA qanunu əsasında ötən ilin ikinci yarısından bəri Rusiyaya qarşı bir sıra yeni sanksiyalar tətbiq olunub və onlar hazırda qüvvədədir. Lakin burada bir önəmli məqam var ki, qanunda sanksiyalar detallı şəkildə qeyd olunmayıb, yəni xırdalıqlara gedilməyib və məsələ konkretləşdirilməyib. Sadəcə olaraq, ümumi şəkildə qeyd olunur ki, filan sahələr üzrə prezident Rusiyaya qarşı sanksiyalar tətbiq etməlidir. Yəni prezidentə geniş təşəbbüs və manevr imkanları tanınır".

**Politoloqun sözlərinə görə, ötən dövrdən bəri açıq-aydın müşahidə olunur ki, Tramp Rusiyaya qarşı sanksiyaları ağırlaşdırmaqda o qədər də həvəsli və istəkli görünmür:** "Hər dəfə yeni sanksiyalar barədə qərarlar Konqresin çağırışı, bəzən isə təzyiqi ilə qəbul olunur, çünki Konqres öz qəbul etdiyi qanunun icrasına ciddi nəzarət edir. Amma Tramp qanunda nəzərdə tutulan sanksiyaların maksimumunu hələ tətbiq etməyib. Bunun əsas səbəbi bir tərəfdən sanksiyaların mərhələli şəkildə ağırlaşdırılması taktikası və Rusiyanın Ukrayna məsələsində öz mövqeyini dəyişib-dəyişməməsinin izlənilməsi ilə əlaqədardırsa, digər səbəbi budur ki, Tramp beynəlxalq terrorçuluqla mübarizə, İran məsələsi və Suriya probleminin həllində Rusiya ilə əməkdaşlıq etmək istəyir. O hesab edir ki, bu problemlərin həllində Moskva ilə əməkdaşlıq nəticəsində daha tez və effektiv nəticələrə nail ola bilər. Digər tərəfdən, düşünürəm ki, Trampın Putinə olan şəxsi simpatiyası da burada qismən rol oynayır. O, seçki kampaniyası dövründə bu simpatiyasını açıq büruzə vermişdi. Ötən həftələrdə Suriya rejiminin kimyəvi silahdan istifadə etməsi ilə əlaqədar ABŞ-ın Əsəd rejiminin himayəçisi olan Rusiyaya yeni sanksiyalar tətbiq edəcəyi gözlənilirdi, hətta BMT-dəki səfir Nikki Heyli bu barədə açıqlama vermişdi. Lakin Tramp son anda bu sanksiyaları əngəllədi. Əslində Trampın Rusiyaya qarşı sanksiyaları gücləndirmək niyyəti də yox idi, əksinə, o, sələfi Obamanın dövründə tətbiq olunmuş sanksiyaları yumşaltmağı düşünürdü, bu barədə Trampın seçki qərargahının üzvlərinin Rusiya nümayəndələri ilə danışıqları da olmuşdu. Məhz bu səbəblə Konqresdəki respublikaçılar və demokratlar Tramp gəldikdən sonra operativ şəkildə CAATSA qanununu qəbul etdilər. Bu qanun üçdə iki səs çoxluğundan daha artıq səslə qəbul olundu və Trampın veto qoymaq imkanı aradan qaldırıldı. Nəticədə Tramp həm Obama dövründəki sanksiyaları ləğv etmək hüququnu itirdi, həm də Rusiyaya qarşı yeni sanksiyaların tətbiqinə məcbur oldu".

**Ş.Cəfərliyə görə, İran, Şimali Koreya, İsrail-Fələstin və Suriya problemlərinin gündəmi zəbt etməsi, şübhəsiz ki, Rusiyaya diqqətin bir qədər azalmasına səbəb olub:** "Digər tərəfdən, bu ilin noyabrında ABŞ-da parlament seçkiləri keçiriləcək və Konqresin Nümayəndələr Palatasının tərkibi tam şəkildə, Senatın isə üçdə biri yenilənəcək. Bu səbəblə, Vaşinqtonda hər kəsin diqqəti bu seçkiyə yönəlib. Seçkilərin önəmi bundan ibarətdir ki, əgər müxalifət qanunverici orqanda üstünlük əldə etsə, prezidentlə Konqres arasında qarşıdurma yaranacaq və demokratlar Trampın əl-qolunu bağlamağa çalışacaqlar. Hətta impiçment məsələsinin gündəmə gəlməsi də istisna olunmur. Ona görə də Tramp var gücü ilə çalışır ki, respublikaçılar qanunverici orqanda malik olduqları çoxluğu qorusunlar. Qarşı tərəf isə Tramp əleyhidarlarını maksimum səfərbər edərək seçkidə yüksək iştirak faizinə nail olmağın və qələbə əldə etməyin planlarını qurur.

Lakin buna baxmayaraq, Rusiyaya qarşı qanunvericilikdə nəzərdə tutulan sanksiyaların tətbiqi qaçılmazdır və prezident qanunun tələbini icra etməyə bilməz. Məsələn, Tramp bir həftə əvvəl icra strukturlarına tapşırıq verib ki, Kiçik və orta mənzilli raketlərin ləğvi barədə 1987-ci il tarixli müqaviləyə Rusiya tərəfindən əməl olunmaması ilə əlaqədar bu ölkəyə qarşı yeni sanksiyalar işləyib hazırlasınlar. Çünki bu tələb Konqresdə qəbul olunan 2018-ci il hərbi büdcəsində əksini tapıb. Orada konkret qeyd olunur ki, prezident Rusiyada həmin müqavilənin pozulmasına cavabdeh olan şəxslərə qarşı tədbirlər panı hazırlayaraq Konqresə təqdim etməlidir. Bu müddəa əsasında bəzi rusiyalı rəsmilərə yeni sanksiyalar tətbiq olunacaq. Bundan başqa, ABŞ hökuməti CAATSA qanunu əsasında Rusiyanın enerji layihələrinə, silah ticarətinə mane olmağa davam edir. Məsələn, Vaşinqton bir neçə gün əvvəl Rusiyadan Baltik dənizi vasitəsilə Avropaya çəkilməsi planlaşdırılan "Şimal axını 2" qaz boru kəməri layihəsində iştirak edən Avropa şirkətlərinə sanksiya xəbərdarlığı ünvanlayıb. Çünki qanunda Rusiya ilə bu sahələrdə əməkdaşlıq edən üçüncü tərəflərə də sanksiyaların tətbiqi nəzərdə tutulub. Vaşinqton Rusiyadan silah almağı düşünən ölkələri də bu fikrindən daşındırmağa çalışır və artıq müvafiq müqavilələr imzalamış bəzi ölkələri, o cümlədən Türkiyəni sanksiya ilə hədələyir. ABŞ-ın Rusiyaya qarşı sanksiyaları uzunmüddətlidir və bu xəmir hələ çox su aparacaq".

❑ Dünya SAKİT,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 111 (7000) 22 may 2018

# Səlim Müslümovun sükutu

## Sabiq nazir gözlənilməz zərbədən hələ özünə gəlməyib?

**Əmək və əhalinin social müdafiəsi naziri Sahil Babayev əlilliyin təyinatı sistemində dəyişiklik etməkdə qərarlı olduğunu nümayiş etdirir. Belə ki, dünən mətbuat konfransında çıxışı zamanı əlilliyin təyin olunması ilə bağlı məsələləri araşdırdıqlarını və bu sahədə islahatlar aparmaq istədiklərini bildirib.**



**S.Babayevin sözlərinə görə, həm qanunvericilik, həm prosedur baxımından, həm də ümumilikdə bu prosesin sosial ədalətli olması baxımından islahatlar aparmağa ehtiyac var:** "Əlilliyin meyarlarına baxılmalı, beynəlxalq təcrübəyə uyğunlaşdırılmalıdır, ərizə-müraciətlərin təqdim olunma forması araşdırılmalıdır, bu sahə ilə məşğul olan müxtəlif dövlət orqanlarının işi əlaqələndirilməlidir, prosesi tam şəffaf şəkildə etmək istəyirik. Prosesin hər hansı ləngimə və ya administrativ-bürokratik maneə ilə rastlaşmamasını təmin etmək istəyirik. İstəyirik ki, buna haqqı çatan hər bir şəxsin buna çıxışı olsun, çatmayanların isə qarşısı alınsın. Bu işlər sistemli şəkildə görüləcək. Bununla bağlı müvafiq komissiya yaradılıb. Həm Səhiyyə Nazirliyində işçi qrupu, həm də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin işçi qrupu yaradılıb. Bu iki işçi qrup birgə işləyərək kriteriya baxımından, normativ hüquqi baza baxımımdan və prosedur baxımından təkliflər hazırlayırlar".

Yeni nazir əlilliyin təyinatı sahəsindəki çox ciddi problemlərə sələfi Səlim Müslümovdan fərqli yanaşma ortaya qoymaqdadır. Əldə etdiyimiz məlumata görə, hazırda əlilliyin təyininə əsas olan xəstəliklər, onların inkişaf səviyyəsi, insanlara təsiri ilə bağlı dəqiq meyarların hazırlanması üzərində işlər aparılır. Çox yaxın zamanda subyektivizmi maksimum məhdudlaşdıracaq meyarların tətbiq olunacağı gözlənilir. Bu meyarların əlilliyi təyin edən şəxslərin rüşvət alaraq yalançı əlillik kağızları verməl追inin qarşısını almaqda mühüm rol oynayacağı proqnozlaşdırılır. Eyni zamanda əlilliyin təyini sahəsində korrupsiya imkanlarını məhdudlaşdıracaq prosedurlar da hazırlanmaqdadır. Yeni nazir bununla uzun illərdir bu sistemdə kök salmış korrupsiya mexanizmini sarsıtmaq niyyətindədir. Verilən məlumata görə, əlilliyin təyinatı, həmçinin pensiya sistemində şəffaflığın yaradılması ölkə rəhbərliyi tərəfindən S.Babayevin qarşısına qoyulan əsas vəzifələrdir.

Onu da qeyd edək ki, 2001-ci ildən pensiya sisteminə birbaşa nəzarət S.Müslümovun əlində olub. Onun rəhbərliyi altında pensiya təyinatı sahəsində sadə vətəndaşların pensiya hüququnu məhdudlaşdıran iki böyük islahat reallaşdırılıb. Pensiya təyinatı sistemində elektronlaşdırma aparılıb. Lakin əlilliyin təyinatı sahəsində olduğu kimi, bu sahədə də elektronlaşma rüşvət və korrupsiyanın azalmasına gətirib çıxarmayıb. Hesablama Palatasının apardığı yoxlamalar göstərir ki, yerli pensiya şöbələrində hələ də ölmüş şəxslərə pensiya ödənməsi, bir adamın bir neçə rayondan pensiya alması kimi çox kobud pozuntular qalmaqdadır. Bundan əlavə, pensiyaların hesablanması prosesində də ciddi maxinasiyalar baş alıb gedir. Qanunvericiliyin vətəndaşa tanıdığı az sayda əlavələr belə ona rüşvət müqabilində tətbiq edilir. Halbuki bu prosedur da elektronlaşmış xidmətlərdən hesab olunur.

Maraqlıdır ki, S.Müslümov rəhbərlik etmiş olduğu iki mühüm sahədəki ciddi qanunsuzluqlar barədə səsləndirilən fikirlərə sükutla cavab verir. Yeni nazirin mövcud vəziyyətin tənqidinə yönəlik sərt çıxışları, ölkə mətbuatının pensiya və əlillik sistemlərindəki korrupsiya və rüşvətxorluqla bağlı yazdıqları, Hesablama Palatasının yaydığı açıqlamalar - hamısı sabiq nazirin sükutu ilə müşayiət olunur. Bu susqunluğun nə qədər davam edəcəyi məlum olmasa da, S.Müslümovun rəhbərlik etdiyi nazirlik daxilində gedən proseslərin hələ uzun müddət davam edəcəyi açıq hiss olunur...

❑ **TURQUT,**
**"Yeni Müsavat"**

# Hafiz Hacıyev taym-aut götürüb

## "Siyasətə elə geri dönüş edəcəm ki..."

**Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev siyasətdən müvəqqəti olaraq geri çəkilib. 11 apreldəki növbədənkənar prezident seçkisindən sonra partiya sədri jurnalistlərin suallarından qaçaraq ona vaxt verilməsini xahiş edir.**



Son ay yarımda yalnız bir dəfə MMP rəhbəri gündəmə gəlib. "Yeni Müsavat"ın suallarını cavablandıran H.Hacıyev Ermənistanın yeni baş naziri Nikol Paşinyanın qulağını kəsib cibinə qoyacağını demişdi.

Partiya sədrindən siyasətdən nə üçün çəkildiyi barədə fikirlərini almağa çalışdıq. Danışmaq üçün 10-15 gün möhlət istəsə də, H.Hacıyev bəzi açıqlamalar verdi: "Hafiz Hacıyev siyasətə bir aylıq fasilə verib. Səhhətimlə, prezident seçkilərində ciddi işlər görməyimlə əlaqədar istirahət edirəm. Hər halda, 10-15 gündən sonra yenidən üzə çıxacam. Partiyamızın işləri bir saniyə də dayanmır, əvvəlki enerji ilə yolumuza davam edirik. İşimizi ən yüksək səviyyədə qurub Azərbaycanda dövlətin sabitliyi, eləcə də digər məsələlərlə bağlı sözümüzü deyəcəyik. Ciddi açıqlamalarımı hər kəs gözləsin. Bəzi məsələlər var ki, onun üçün gözləmə mövqeyindəyəm. Hafiz Hacıyev siyasətə elə geri dönüş edəcək ki, hər kəs ondan danışacaq. Heç kimdən incikliyim-filan yoxdur. Sadəcə, istirahəti vacib saydım. Çox ciddi siyasi proseslərə başlayacağımız günə az qaldı. Ölkə daxilində gedən prosesləri diqqətlə izləyirəm. Partiyamızın fəaliyyətində zəiflik yaranmasın deyə bütün müavinlərimə tapşırıqlar vermişəm. Qurultaya da hazırlaşırıq, bu istiqamətdə də uğurla işlərimizi aparırıq. Yaxın vaxtlarda qurultayımız baş tutacaq. Sadəcə, işə çıxandan sonra dəqiq qurultay vaxtını deyəcəm".

**H.Hacıyev Azərbaycanın ana müxalifəti olmağa iddialıdır:** "Gələcəkdə lazım olsa, ana müxalifət missiyasını öz üzərimizə götürüb, çox ciddi proseslərə başlamaq qərarı verə bilərik. Hələlik gözləyirik. Bizim üçün ölkədə ana müxalifət olmaq elə də çətin deyil. Çünki indiki müxalifət liderlərinin hamısının iç üzləri açılıb, hər kəs bilir ki, kim kimdir, kimlər kimə işləyir. Xalqın sözünü deyən Hafiz Hacıyevdir, mən xalqın danışan diliyəm. Dövlətimi qoruyub, onu sevirəm. Xalqın qabağına çıxan ərəfədə nələrəsə nail olacağıma əminəm. Prezident seçkilərində tutduğum yer barədə hələ ki açıqlama vermək istəmirəm. Amma susmaq da fikrində deyiləm. Zamanı gələndə hər şeyi deyəcəm".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**



# Məşhur oliqarxı İngiltərədən niyə qovurlar?

## Roman Abramoviçə viza verilməməsinin səbəbi açıqlanmır

**Rusiyalı oliqarx, biznesmen və İngiltərənin "Çelsi" futbol klubunun sahibi Roman Abramoviç özünün Britaniya vizasının müddətinin uzadılması barədə etdiyi müraciətə hələlik heç bir cavab almayıb.**

Məlumdur ki, Abramoviç ötən şənbə günü futbol üzrə İngiltərə kuboku uğrunda keçirilmiş final matçında iştirak edə bilməyib. Həmin görüşdə onun sahibi olduğu futbol klubu "Manchester United" klubuna 1:0 hesabı ilə qalib gələrək qələbə qazanıb.

BBC müxbirinin məlumatına əsasən, Roman Abramoviçin şəxsi "Boeing-767" təyyarəsi sonuncu dəfə Britaniyanı aprelin 1-də tərk edib və o vaxtdan bəri Britaniyaya dönməyib.

Oliqarxın çevrəsindəki mənbələr BBC-yə bildiriblər ki, Abramoviçin Britaniya vizasının müddəti aprelin sonunda başa çatıb, yenisi isə ona hələ verilməyib.

"Abramoviç ilk dəfə deyil ki, Britaniya vizasını uzadır, lakin bu dəfə yubanma baş verib, söhbət viza müraciətinə rədd cavabdan getmir" - deyə, oliqarxın çevrəsindəki mənbə BBC-yə bildirib.

Britaniya hökumətinin saytında bildirilib ki, investor vizası ilk dəfə 40 ay müddətinə verilir. Bundan sonra 2 il müddətinə uzadıla bilər. Viza müraciətinin baxılması müddəti 3 həftəyə qədərdir.

Biznesmenin rəsmi nümayəndəsi John Mann məsələ ilə bağlı şərh verməyib.

Martın sonunda Britaniya investorlara vizaların verilməsinə dair dövlət proqramını yenidən nəzərdən keçirəcəyini bildirmişdi.

Biznesmenin nümayəndəsi informasiyanı şərh etməyib.

Nəşr qeyd edir ki, R. Abramoviç İngiltərədə 3 il 4 ay müddətinə verilən investisiya vizası ilə qalır. Bundan sonra viza uzadılmalıdır. Bunun üçün isə o, ölkə iqtisadiyyatına 2 milyon funt sterlinq sərmayə qoymalıdır.

Bu ilin əvvəlində məlum olmuşdu ki, "Çelsi" və klubun sahibi Roman Abramoviç maliyyə problemləri ilə üzləşib. Mənbə London klubunun son 6 ildə gəlir və xərclərini təhlil edərək statistik göstəriciləri digər Premyer Liqa klubları ilə müqayisə edib. Məlum olub ki, 2012-ci ildən "Arsenal"ın dövriyyə vəsaitləri 68, "Manchester United"in 71, "Liverpool"un 82, "Manchester City"nin 85, "Tottenham"in isə 100% artım göstərib. Son 6 ildə qeyd olunan klublardan daha çox İngiltərə çempionu olsa da, "zadəganlar"ın dövriyyə vəsaiti cəmi 33% artıb. Eden Hazardın transferindən sonra "Chelsea" qiyməti 40 milyon funtdan yüksək olan cəmi 2 transfer edib. Mançesterin 2 klubu 6 ildə qiyməti 40 milyondan çox olan 11 futbolçunu heyətinə qatıb. Son 4 mövsümdə London klubu futbolçu satışından 224, "Manchester United" 32, "Arsenal" 45, "Manchester City" isə 69 milyon funt qazanıb.

"Forbes" jurnalının son məlumatlarına əsasən, Abramoviç 10.2 milyard dollarla dünyanın 107-ci, Rusiyanın isə 13-cü ən zəngin insanıdır. Ötən dəfə isə Abramoviç 61-ci yerdə idi.

İkinci həyat yoldaşı ilə boşanmamışdan əvvəl Romanın banklardakı hesablarında 8 milyard funt sterlinqə yaxın pul var idi. Bundan başqa, Abramoviç maşın və yaxtalarla yanaşı, 28 milyon funt sterlinqlik villaya, bir çox ev və köşklərə sahibdir.

2003-cü ildə Roman Abramoviç 140 milyon funt sterlinqə İngiltərənin "Çelsi" futbol klubunu alır və faktiki olaraq, Böyük Britaniyaya köçür. İki il sonra isə o, "Sibneft" kompaniyasının səhmlərinin 75,7%-ni "Qazprom"a satır. Daha sonra qubernator postunu tərk etməyə cəhd edir, amma prezidentlə görüşdən sonra fikrini dəyişir. 2005-ci ildə onu yenidən Çukot əyalət dairəsinin başçısı vəzifəsinə təyin edirlər. 2008-ci ildə onun səlahiyyətləri könüllü istəyi ilə vaxtından əvvəl dayandırılır. O, əvvəlcə Çukot Dumasının deputatı, daha sonra isə Dumanın sədri olub.

❑ **Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**



# Başqa həyatlar

Zamin HACI
zaminhaci@gmail.com

"Xoruldayır qullar. Ah, qabaqlar hər şey başqa cür idi"

*(Aristofan, "Buludlar")*

**Azərbaycanda icra başçısı işləmək bəlkə də Amerikada ştat qubernatoru olmaqdan vacibdir. Bu, təkcə bizim regionun lider dövləti olmağımızla əlaqədar deyildir. İnanmayanlar Youtube portalında axtarış verib tapıb baxsınlar: hazırda Amerikaya prezidentlik edən adam, yəni Donald Tramp cəmi 4 il qabaq bizim ellimiz Emin müəllimin musiqi klipində oynamışdır. "İn another life" ("Başqa ömürdə") adlı mahnının klipində.**

Yaxud tarixə ekskurs eləsən görərsən ki, ruslar həmişə bizi rayonlara bölməkdə maraqlı olmuşdur. Parçala, hökm sür siyasətinə əsasən. Misal üçün, siz sovet dövründə Azərbaycanda Bakı və Gəncə əyalətlərinin yaradıldığını bilirdinizmi? 1952-ci ildə ediblər. SSRİ-də əyalətlər (rusca oblast) hüquqi-administrativ baxımdan müttəfiq sovet respublikalarıyla eyni statusa malik olduğundan Moskva qərara alır ki, Azərbaycanı təkcə rayonlara bölmək azdır və mərkəzləri Bakıda və Kirovabadda olmaqla 2 əyalət yaradılır. Doğrudur, bu əyalətlərin ömrü qısa olub, cəmi 1 il çəkib və 1953-cü ildə Stalinin ölümündən sonra ləğv ediliblər, ancaq tariximiz üçün maraqlı faktdır.

O üzdən, indi bizim hansısa naziri işdən çıxartmaq bəlkə də icra başçısını çıxartmaqdan asandır. Əgər fikir verdinizsə Binəqədinin icra başçısı Xaləddin müəllimin qovulması təxminən belə baş verdi: öncə hansısa sayt onu "işdən çıxartdı", halbuki rəsmi dövlət qurumlarının saytında bu haqda hər hansı xəbər yox idi. Başqa jurnalistlər Xaləddin müəllimə zəng vurdular, o isə təsdiqlədi, dedi, bəli, hazırda şələ-küləmi yığışdırıram. Yalnız bundan sonra rəsmi orqanların saytında Xaləddin müəllimi işdən azad elədilər. Dəli şeytan deyir ki, bəlkə Xaləddin müəllim o ikinci jurnalistlərə şayiəni təsdiqləməsə indiyəcən onu çıxartmaq namümkün hala gələrdi.

Hamısı dövlətçilik təcrübəmizin çoxluğuna görədir. Odur, Polşada səfirimiz işləyən Kərpic Həsən müəllim də araşdırıb, ortaya çıxarıb ki, Azərbaycanın dövlətçilik təcrübəsi eramızdan qabaq neçənci ilsə gedib çıxır. Savadsız adamam, çox anlamadım, bircə onu başa düşdüm ki, Moskvadakı Arbat küçəsinin adı təxminən Atropatın adından əxz edilibdir. Bir də fəhmlə duydum ki, hazırda qədimlik yarışmasında məlun erməniləri hardasa 250 il qədər ötmüşük. Tozumuza da çata bilməyəcəklər! Axırda Böyük Partlayış bizim işimiz olacaqdır, görərsiniz. Hərçənd hüquq-mühafizə orqanlarımız Kainatın bu cür yaradılmasına o qədər də xoş yanaşmırlar. Qayıdaq dövlətçiliyimizin yanına.

İsveçdən daimi oxucumuz Nazim bəy miqrasiya idarəmizdə üzləşdiyi vəziyyətdən yazır: "Bu yaxında İlham Əliyevin fərmanları ilə bir çox nazirlik və idarələrin rəhbərləri dəyişildi. O idarələrdən biri də miqrasiya idarəsidir. Azərbaycana viza ilə gələn hər kəs 10 gün ərzində qeydiyyata düşməlidir. Bunu miqrasiya idarəsinin internet saytı vasitəsilə də etmək mümkündür (guya). Ancaq təzə rəis gələndən sonra bu funksiya işləmir. Sənədləri miqrasiyanın e-mail adresinə göndərirsən, cavab olaraq yazırlar ki, miqrasiya idarəsinə yaxınlaşın. Əgər bu funksiya çalışmırsa, niyə insanları aldadırlar ki, guya internet vasitəsiylə də qeydiyyata düşmək olar? Çox güman elektron poçtla rüşvət ala bilmədikləri üçün idarəyə gəlməyi məsləhət görürlər. 10 gün qabaq mənim də başıma oyun gətirdilər. Azərbaycana gəldikdən sonra e-mail-lə sənədləri göndərdim, cavab gəldi ki, idarəyə gəlin. Sənədlərimlə miqrasiya idarəsinin Lənkərandakı bölməsinə yaxınlaşdım, məndən 50 manat rüşvət istədilər. Etiraz elədim. Dedilər axı biz də əziyyət çəkirik. Pulu vermədiyimə görə qeydiyyata almadılar. Bu haqda prezident aparatına şikayət edəcəyimi söylədim". Məktubun sonu.

Bir də Xarici İşlər Nazirliyindən xahiş edərdik ermənilər bizə tərəf güllə atıb hansısa adamımızı öldürəndə "bu, provokasiyadır, məsuliyyət Ermənistanın üzərində qalacaq" açıqlaması verməsinlər - şöhrətimizə yaraşmır. Deyəsən, onlar bizim əraziləri 28 ilə yaxındır tutub şellənirlər. Daha nə provokasiya, hansı fitnəkarlıq, necə bir məsuliyyətsizlik? Ən yaxşısı budur XİN belə bəyanat versin: "Bizə güllə atana söyüş qoymuşuq".




# Tiflis Ermənistana dəhliz açır - xəyanət projesi reallaşır

## Rusiya və Gürcüstan anlaşma ərəfəsində; mayın 24-də Abxaziya dəmir yolunun açılışı ilə bağlı Praqada razılıq əldə oluna bilər - Bakıya bəd müjdə; Paşinyan Tiflisə gedir, erməni arzusu çin olur, blokada yumşalır?..

**İşğalçı Ermənistanın blokada rejimini yumşaltmaq üçün bu günədək hansı səyləri göstərdiyi bəllidir. Bu yöndə Sərkisyan rejimi çox əlləşdi, lakin nəticə hasil olmadı. Aydındır ki, Dağlıq Qarabağ problemi çözülmədən Türkiyə və Azərbaycanla kommunikasiya əlaqələri açılmayacaq. Ancaq İrəvan heç olmasa, Ermənistanı Rusiya ilə birləşdirəcək trans-Abxaziya dəmir yolunun və Osetiya avtomobil yolunun işə düşməsinə çalışır.**

Bu məqsədlə ötən ilin sonlarında eks-prezident Serj Sərkisyan və eks-baş nazir Karen Karapetyan ard-arda Tiflisə səfərlər eləmişdilər. Lakin bu qəbildən səylərin reallaşması asan məsələ deyil. Siyasi, geosiyasi faktorlar var ki, onlar vazkeçilməz görünür.

Onlardan biri də Tiflisin Bakı və Ankara ilə əlaqələridir. Bu əlaqələr iqtisadi-ticari, energetik-kommunikasiya sferalarından əlavə, strateji əhəmiyyətli hərbi və təhlükəsizlik sahələrini də özündə ehtiva edir. Son illər üç ölkə arasında dayanıqlı bir format yaranıb ki, rəsmi Tiflis bunu görməzlikdən gələ bilməz - hətta Ermənistana dəhlizlərin açılması ona əlavə iqtisadi dividentlər gətirsə belə.

Söhbət Abxaziyadan keçən və 20 ildən çoxdur fəaliyyətsiz qalan dəmir yolunun işə salınması ilə yanaşı, Ermənistana alternativ avtomobil yolunun açılmasından gedir. Məsələ ilə bağlı Çexiyanın paytaxtı Praqada mayın 24-də Rusiya və Gürcüstan rəsmi nümayəndələri - Georgi Abaşizde və Qriqori Karasin arasında növbəti, lakin deyəsən, bu dəfə həlledici görüş nəzərdə tutulub. Bəzi məlumatlara görə, iki gün sonra tərəflər anlaşmaya xeyli yaxın ola bilər.

*****

"Yen Müsavat" xatırladır ki, belə bir anlaşma üçün əsas çoxdan mövcuddur: 2011-ci ildə Moskva ilə Tiflis arasında Abxaziya yolu ilə daşınacaq yüklərin bitərəf monitorinqini həyata keçirmək üçün İsveçrənin SGS şirkəti ilə "Yüklərin gömrük monitorinqi" haqda ikitərəfli saziş imzalanıb. Lakin Rusiya yekun sənədə müstəqil dövlət kimi tanıdığı Cənubi Osetiya və Abxaziyanın da imza atmasını istəyir, separatçı qurumlarla Gürcüstan arasında gömrük postlarının qoyulmasında təkid edirdi. Rusiya tərəfinə görə, Moskva Abxaziya və Cənubi Osetiyanı suveren qurum kimi tanıdığından, belə postlar olmalıdır. Gürcü tərəfi isə bunu qəbul eləmirdi, çünki o halda Tiflis bu iki separatçı rejimin müstəqilliyini tanımış olacaqdı.

Ən son bilgilərə görə, yekun üçtərəfli *(Rusiya-Gürcüstan-İsveçrə)* anlaşma sənədinə separatçı qurumlarım imza atmasına, hər halda, lüzum qalmaya bilər. Belə ki, "Yeni Müsavat"a çatan məlumata görə, Abaşizde bildirib ki, Rusiya tərəfi mayın 18-də adıçəkilən şirkətlə anlaşma imzalayıb *(Gürcüstanla analoji müqavilə keçən ilin dekabrında imzalanıb)*. Moskvanın separatçı rejimləri imza atmaqdan imtinaya necə məcbur elədiyi bəlli deyil. Qalır mayın 24-də Praqada konkret addımları müəyyən eləmək.

*****

"Fikrimcə, mayın 24-də müəyyən addımlar atılacaq. Ümid edirik ki, Rusiya anlaşmadan irəli gələn öhdəliklərini vicdanlı şəkildə yerinə yetirəcək. Bunun ardınca anlaşmaya nəzarət eləmək üçün gürcü-İsveçrə işçi qrupu yaradılmalıdır", - deyə Abaşidze qeyd edib.

Anlaşma Abxaziya və Cənubi Osetiyadan keçməklə Rusiyadan Gürcüstan və Ermənistana "ticarət dəhlizləri" yaratmağı nəzərdə tutur. Lakin İsveçrə tərəfi daşınan yüklər haqda hər iki tərəfdən yalnız informasiya almaqla kifayətlənəcək, onları yoxlamaq missiyası daşımayacaq. Bu, o deməkdir ki, Rusiyadan Abxaziya dəmir yolu ilə Ermənistana hərbi təyinatlı yüklər də daşına bilər ki, bu da Azərbaycan üçün əsla məqbul sayıla bilməz. Bundan əlavə, dəmir yolunun işə düşməsi *(Rusiya ilə quru əlaqə)* işğalçı ölkənin iqtisadi durumunun yaxşılaşması və blokada rejiminin qismən yumşalması demək olardı.

*****

**Artıq erməni tərəfi xəbərdən dolayı sevincini gizlətməyib.**

**"Görəsən, mayın 13-də baş nazirlər - Nikol Paşinyan və Georgi Kvirikaşvili telefonda bu haqda da danışıbmı? Yaxud mayın 14-də Soçidə Putinlə söhbət zamanı mövzuya toxunulubmu?" "Yeni Müsavat"ın məlumatına görə, bu barədə Iragir.am saytındakı şərhdə deyilir.**

**Yazıda daha sonra deyilir:** "Yada salaq ki, mayın 26-da Nikol Paşinyan Gürcüstan Respublikasının 100 illiyinə həsr olunmuş bayram tədbirində iştirak eləmək üçün Tiflisə gedəcək. Əgər mayın 24-də Rusiya və Gürcüstan arasında danışıqlarında sıçrayış olarsa, o zaman erməni-gürcü münasibətləri daha yüksək mərhələyə keçəcək. Gürcüstan ərazindən keçən nəqliyyat yollarının açılması Ermənistan üçün mühüm kommunikasiya əhəmiyyəti daşıyır - xüsusən də əgər Rusiya ilə dəmir yolu əlaqəsi də bərpa olunarsa. Başqa yandan, Rusiya-Gürcüstan müqaviləsi ilə bağlı təcrübə və kommunikasiyaların açılması Azərbaycan-erməni münasibətləri üçün presedent kimi nəzərdən keçirilə bilər. Əgər əlbəttə ki, bu yolu açmaq mümkün olarsa. Bu xüsusda söhbət həm də Naxçıvan dəmir yolunun açılmasından gedir".

*****

Göründüyü kimi, erməninin iştahı daha böyükdür. İşğalçı ölkədə Qarabağ məsələsində heç bir irəliləyiş olmaya-olmaya Azərbaycanla da kommunikasiyaların bərpasına ümid edənlər var. Görək Abxaziya dəmir yolu presedent olacaqmı, gürcülər Azərbaycana xəyanət projesinə, işğalçının daha da ayaqlanması layihəsinə imza atacaqlarmı?

2 gün gözləyək.

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 111 (7000) 22 may 2018

> **“Azərbaycanın AŞ-PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidova qarşı tətbiq edilən sanksiyalar heç bir əsasa söykənmir və qərəzlidir”.**

# Səməd Seyidovun postunda saxlanması AŞ-la əməkdaşlığa problem yarada bilərmi...

## **Azay Quliyev:** “Siyasi baxımdan vəziyyətin və yanaşmanın necə olacağını Səməd Seyidov və Azərbaycan hökuməti müəyyənləşdirməli, vəziyyətə uyğun qərar verilməlidir”



**Bunu mayın 21-də jurnalistlərə ATƏT Parlament Assambleyasının (ATƏT PA) vitse-prezidenti, Azərbaycanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Azay Quliyev bildirib. Onun sözlərinə görə, qurumun bu addımı Azərbaycana qarşı yönəlib:** “Çünki şəxsən Səməd Seyidovun bu korrupsiya məsələsinə aid olmasını sübut edəcək bir dəlil yoxdur. Hazırlanmış hesabat özü də ziddiyyətlərlə doludur. Hesabat bütünlüklə Azərbaycana həsr olunub. Bu da təbii ki, üzücüdür və təəssüf hissi doğurur. Düşünürəm ki, AŞ PA heç bir halda öz ali dəyərlərini kiçiltməməlidir. Hər hansı bir sifarişlə bir ölkəni xüsusi seçərək ona qarşı belə bir addım atılmamalıdır”.

**ATƏT PA-nın vitse-prezidenti qeyd edib ki, bütün bunlara baxmayaraq, Azərbaycanın Avropa Şurasından çıxması düzgün addım olmaz:** “Çünki Azərbaycan qurumun ən fəal üzvlərindən biridir. Azərbaycan eyni zamanda Avropa Şurasının və onun Parlament Assambleyasının fəaliyyət prinsiplərinə, dəyərlərinə daim hörmət edən ölkələrdən biridir. Bəzi dairələrin təzyiqi altında, onların istəyi və təxribatı ilə Azərbaycanın öz qərarına yenidən baxmaq, AŞ PA-dan çıxmaq kimi niyyəti yoxdur və olmamalıdır. Ola bilsin, buna cəhd edənlər var. Bu cür layihələrin arxasında duran əsas məkrli planlar odur ki, Azərbaycan və Avropa arasında münasibətlər korlansın. Avropa ilə əməkdaşlığa müəyyən xələl gətirilsin. Nəzərə alsaq ki, bu gün Azərbaycan Avropa İttifaqı ölkələrinin əsas ticarət tərəfdaşıdır, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. TAP, TANAP, Bakı-Tiflis-Qars dəmir yolu kimi layihələr icra olunur. Belə olanda hamıya bəllidir ki, Azərbaycana qarşı məkrli işlərdə kimlər maraqlıdır”.

**Bəs Səməd Seyidovun nümayəndə heyətinin rəhbəri kimi saxlanması AŞ PA ilə münasibətlərə təsir edə bilərmi?**

**Azay Quliyev deyib ki, S.Seyidovun istefa verməsini düzgün hesab etmir:** “Bu bütövlükdə ədalətsiz, qərəzli, haqsız bir qərardır. Bunu bilə-bilə nümayəndə heyətinin tərkibinin və rəhbərinin dəyişdirilməsini mənəvi baxımdan düzgün hesab etmirəm. Amma siyasi baxımdan vəziyyətin və yanaşmanın necə olacağını Səməd Seyidov və Azərbaycan hökuməti müəyyənləşdirməli, vəziyyətə uyğun qərar verilməlidir.

Mənim fikrimcə, sırf mənəvi baxımdan bu, Səməd Seyidova qarşı edilmiş haqsızlıqdır və bu haqsızlığı bilə-bilə onu nümayəndə heyəti rəhbərliyindən uzaqlaşdırmaq düzgün deyil. Amma siyasi qərarı Səməd Seyidov və rəhbərlik özü verəcək".

**Siyasi ekspert Yeganə Hacıyeva** isə “Yeni Müsavat”a öncə bildirdi ki, AŞ PA-da ard-arda ölkələrin nümayəndə heyətlərinə sanksiyalar tətbiq olunması təcrübəsi Rusiya, Türkiyə kimi dövlətlərin Avropa Şurası ilə əlaqələrinin gərginləşməsinə, bu dövlətlərin cavab olaraq quruma ödədikləri üzvlük haqqını azaltmasına, xüsusilə də Avropa İnsan Haqları Məhkəməsinin qərəzsizliyi şübhə doğuran qərarlarına əməl etməməsinə gətirib çıxardı. Belə cavab addımlarının uzunmüddətli hesabda digər üzv dövlətlərdə domino effekti yarada biləcəyindən ehtiyat edən AŞ PA fərdi sanksiyaların tətbiqi siyasətini yürütməyə başladı. AŞ PA-nın keçən il yay sessiyasında qəbul olunan “Üzvlərin məsuliyyət prinsiplərinin tanınması və həyata keçirilməsi” hesabatı ilə daxili prosedur və reqlament qaydaları dəyişdirildi. Bu dəyişikliklər məhz sanksiyaların tətbiqi üçün baza olaraq nəzərdə tutulub: “Bunun əsasında Müstəqil İstintaq Qrupu formalaşdı və qrupun fəaliyyəti nəticəsində, əslində heç bir dəlil və sübuta, real faktlara söykənməyən korrupsiya hesabatı qəbul olundu. AŞ PA-nın korrupsiyada və etika qaydalarını pozmaqda ittiham olunan indiki və keçmiş üzvlərinə sanksiyalar tətbiq olunması həyata keçirildi. AŞ PA-dakı nümayəndə heyətinin rəhbərinə tətbiq edilən sanksiya heç də ölkəmizin digər deputatlarının AŞ PA-dakı fəaliyyətini məhdudlaşdırmır, AŞ PA-da Azərbaycan nümayəndə heyətinin Səməd Seyidovla bərabər digər 12 üzvü var. Səməd Seyidovun ətrafında baş verənlər qısamüddətli fərdi sanksiyalardır və Azərbaycanın Avropa Şurası ilə münasibətlərinə fundamental təsir göstərə biləcək bir hal deyil”.

**Y.Hacıyeva qeyd etdi ki, Səməd Seyidovun nümayəndə heyətinin rəhbəri kimi saxlanması Avropa Şurası ilə münasibətlərimizdə problem yaradası deyil:** “Ancaq Avropa Şurasında bu il Avropa İnsan Haqları Məhkəməsi hakimlərinin seçkiləri, gələn il isə yeni baş katib seçkiləri keçiriləcək. Seçkilər öncəsi komitə və komissiyalarda nümayəndə heyətlərinin rəhbərləri səviyyəsində təmsilçilik və iclaslar keçirilir. Azərbaycan nümayəndə heyətinin seçkili orqanlarda təmsilçiliyinə qoyulmuş iki illik qadağa ölkəmizi bu proseslərdən kənarda qoya bilər. Bu isə nəticə olaraq maraqlarımızın müdafiəsində mövqelərimizin zəifləməsinə təsir edə bilən bir haldır”.

**Politoloq Əhəd Məmmədli isə bildirdi ki, indiki anda Səməd Seyidovun nümayəndə heyətinin rəhbərliyindən kənarlaşdırılmayacağı gözlənilən idi. Hakimiyyət Səməd Seyidovu və Azərbaycan nümayəndə heyətini müdafiə etməli idi və belə də oldu:** “Çünki bununla Avropa Şurasının məlum qərarının Azərbaycan tərəfindən heçə sayıldığını nümayiş etdirirlər.

Lakin nəzərə alsaq ki, qarşıdakı illərdə Səməd Seyidov sanksiya altında olacaq və bir sıra vacib məqamlarda çıxış etmək imkanından məhrum vəziyyətdə olacaq, deməli, onun saxlanması Azərbaycanın özünə ziyan ola bilər. Ona görə də, hər halda, emosiyalar sönəndən sonra hakimiyyət bu məsələdə daha real qərar qəbul edəcək və Səməd Seyidov istefaya göndəriləcək və ya özü istefa verəcək. Onun yerinə yeni deputat seçiləcək. Əks halda, Avropa Şurasında növbəti lazımsız hücumlara məruz qala bilərik. Bu da indi bizə lazım deyil".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Deputatlar haqlı deyilmi?..



**Hüseynbala SƏLİMOV**

**Qəribə olsa da, bizim deputatlar da hərdən çaşıb doğru-dürüst sözlər deyirlər. Düzdür, çox nadir hallarda olur bu, çünki bizim deputatlarımız çox seyrək hallarda öz sözlərini deyirlər, hamı kimi onların da əsas işi tərif demək və deputatxanamızın da əsas funksiyası tərif istehsal etməkdi ki, bunu hətta kiçiklərimiz də bilir.**

O ki qaldı qanun məsələsinə, özlərinin etirafına görə icra hakimiyyətimiz özünə lazım olan bütün qanunları yazıb göndərir, şanlı deputatlarımız isə onlara “quş” qoyurlar, yəni ki, qəbul edirlər. Adətən bu məqamlarda bir az əvvəldə dediyim kimi, bəziləri çaşaraq məcradan çıxır və hətta tənqidi qeydlər də səsləndirirlər. Güman, sonradan bunun da bədəlini ödəyir və “Bir daha belə etmə!” tapşırığı alırlar.

Nə isə, bu yaxınlarda bir neçə deputatımız qayıtdı ki, bir naziri işdən çıxaran kimi bunun sərvətləri - pulları haqqında xəbərlər ölkəni başına götürür, gündəmə çox böyük məbləğlər gəlir ki, ölkə əhlinin əksəriyyəti onları heç təsəvvür etmək iqtidarında olmur.

Amma deputatlarımızı qayğılandıran tamam başqa sualdır: əcəba, dövlətin bir çox strukturları az qala, hər il nazirliklərin işini yoxlayır, bəs nədən korrupsiya halları və maliyyə maxinasiyaları yalnız nazirlər işdən azad olunandan sonra aşkar olur?..

Həqiqətən də maraqlı sualdır. Bəli, demək olardı ki, bütün bunlar jurnalistlərin uydurmasıdır, onsuz da jurnalistlərin beli yükə öyrəncəlidir və onlar Vətən və dövlət naminə bu yükün də altına girə bilərlər.

Amma bir məsələ də vardır axı: təkziblər olmur, üstəlik, hüquqi proseslər də həyata keçirilir. Bəli, nazirlərin özlərini də olmasa, kiçik vəzifəli əməkdaşlarını məhkəməyə çəkirlər ki, sən niyə vaxtında nazirini başa salmamasan ki, rüşvət almaq və dövlət malını mənimsəmək olmaz?

Onlar da bu cür iradlara tutarlı - məntiqli cavab tapa bilmirlər və lap axırda da həm özlərinin, həm də nazir ağalarının əvəzinə cəza çəkmək üçün yollanırlar məhbəsə.

Qərəz, çox böyük problemdir. Azərbaycan kiçik ölkədir, özü də çox kiçik, həm də bu kiçiklik təkcə coğrafi məzmun kəsb etmir - bizim hərbi və siyasi gücümüz, iqtisadiyyatımız böyük dövlətlərinki ilə müqayisəyə belə gəlmir. Amma burada bir paradoks var: bu kiçik ölkənin məmurları sərvətə və pula görə hətta dünyanın böyük - böyük siyasətçilərinə, necə deyərlər, “doqquz” gələrlər...

Həm də belə hal bir və yaxud bir neçə nazirin “fərasət”inin nəticəsi deyil, ölkənin iqtisadi modelindən törəyən ciddi sosial-siyasi mərəzdir.

Məhz bunun nəticəsidir ki, başqa ölkələrdə korrupsiya və ya rüşvət istisna olduğu halda, bizdə bunun əksi - rüşvət almamaq, korrupsiyaya qurşanmamaq istisna haldır. Ona görə də deyəndə ki, başqa ölkələrdə də korrupsiya var, bir az dəqiqləşmə aparmaq lazımdır - bəli, istisna kimi olur, biz də isə bunun əksi istisnadır...

Hüqonun Jan Valjanı bir çörək oğurladığına görə katorqaya düşmüşdü. Bizdə də oğurluq cinayətdir, məsələn, gedib kiminsə toyuğunu oğurlasan səni dərhal damlarlar.

Amma burada da düzəliş etmək lazım gəlir: milyonlar oğurlamaq, hamıya, yəni dövlətə və cəmiyyətə məxsus olan sərvəti talamaq heç də oğurluq sayılmır, ən azı buna görə heç də hamını damlamırlar - düzdür, burada da bəxti gətirməyənlər olur, amma neyləmək olar? Qoy, onlar da bəxtlərindən şikayətçi olsunlar...

Bəli, deyirlər ki, tsinizm də insanın psixoloji immunitetidir, insan bu yolla özünü dəli olmaqdan qoruyur. Necə ki, kefli İsgəndər hər şeyə lağ etməklə özünü hər iki mənada ölümdən hifz edirdi...

Amma sən lağ elə, mən lağ eləyim və bununla da məsələ bitsin! Bəs bunun axırı nə olacaq? Bunun bədəlanin kim ödəyəcək? Korrupsioner məmurlarmı? Yox, onlar ödəmir, biz ödəyirik - sən, mən və həmişə başı qeylü-qalda olan biçarə “hamı”...

Ona görə də daim deyirik ki, korrupsiya məsələsi həm də milli təhlükəsizlik problemidir. Sovetlər kimi nəhəngi dağıtmaq və çökdürmək təcrübəsi olan mərhum Z.Bjezinski yazırdı ki, korrupsiya bir ölkəni kənardan idarə etmək üçün ən yaxşı vasitədir. Azərbaycan həm də müharibə aparan ölkədir. Heç olmasa, bir məsələdə müharibə məntiqi və qanunu işləməlidir, ya yox?..

Yeni Müsavat
N 111 (7000) 22 may 2018

# Qarabağa qanunsuz səfərlərin sayı artıb - nə etməli?

**Ermənistanın yeni baş naziri Nikol Paşinyanın gəlişindən sonra Dağlıq Qarabağa qanunsuz səfərlərin sayı artmaqdadır. Düşmən ölkədə inqilabi proseslər gedən günlərdə Paşinyanın qalib gələcəyi təqdirdə Qarabağ məsələsində müsbət dəyişikliklərin baş verəcəyinə müəyyən ümidlər var idi. Amma necə deyərlər, "İlanın ağına da lənət, qarasına da". Paşinyanın gəlişi özü ilə nəinki dəyişikliklər gətirdi, əksinə, əvvəlkindən daha radikal bir qüvvənin iş başına gəldiyi məlum oldu.**





**Elçin Mirzəbəyli:** "Paşinyanın yox, bütövlükdə Ermənistan cəmiyyətinin cəzalandırılmasına yol açmalıyıq"
**Elşən Mustafayev:** "Bunun qarşısını almağın yolu yalnız torpaqların azad olunmasından keçir"

Baş nazir kimi ilk səfərini Qarabağa edən Paşinyanın Serj Sərkisyan rejimindən fərqli siyasət yürütməyəcəyi aydındır. Belə bir şəraitdə Azərbaycanın Dağlıq Qarabağa edilən qanunsuz səfərlərin qarşısını necə almalı? Paşinyan rejiminə öz yerini necə göstərməklə bağlı müxtəlif fikirlər var.

**Politoloq Elçin Mirzəbəyli** bildirdi ki, Ermənistanda ciddi hakimiyyət boşluğu yaranıb və Nikol Paşinyan baş nazir seçilsə də ölkə daxilindəki siyasi prosesləri nəzarət altında saxlamaq iqtidarında deyil: "Dağlıq Qarabağ məsələsində Paşinyanın ifrat radikal davranışları bu məsələnin onun ən zəif nöqtəsi olmasındadır. Paşinyan idarəetmə təcrübəsinin olmadığına və həm də bir siyasətçi kimi yetkinliyinin şübhə doğurduğuna baxmayaraq, çox güman ki, ölkə xaricindən müəyyən məsləhətlər alır. Ola bilsin ki, bu həssas nöqtə ilə bağlı ona müəyyən təlimatlar da verilib. Yəni Paşinyana Dağlıq Qarabağ məsələsində baş verə biləcək hər hansı bir uğursuzluğun Qarabağ klanına revanş üçün imkan yaradacağını anladıblar. Digər tərəfdən, mümkündür ki, Nikol Paşinyan Azərbaycanın Ermənistandakı daxili gərginliyin artmasını gözlədiyi, bu baxımdan da prosesləri səbirlə müşahidə etdiyi qənaətindədir. Bütün cəmiyyətlərdə olduğu kimi, Ermənistanda da xarici düşmən faktorunun qabardılması diqqəti digər problemlərdən yayındıra bilər. Bu təcrübə də dəfələrlə sınanıb. Mümkündür ki, Paşinyan və təlimatçıları məhz bu amili və Azərbaycanın daha öncə qeyd etdiyim səbəblərdən həlelik kəskin reaksiya verməyəcəyini nəzərə alıblar. İndiki şərait həddən artıq həssas yanaşma tələb edir. Yəni elə etmək lazımdır ki, həm xarici amillərdən istifadə olunmaqla diqqəti Ermənistandakı problemlərdən və daxili ziddiyyətlərdən yayındırmaq üçün bəhanə olmasın, həm də daxili gərginlik artsın və hakimiyyət boşluğu dərinləşsin. Zənnimcə, hazırda bütün vasitələrdən istifadə etməklə diplomatik pressinqi gücləndirmək lazımdır. Hazırda Ermənistan cəmiyyəti Avropa İttifaqı ilə münasibətlərin dərinləşəcəyinə və bu faktorun onlar üçün xilas yolu olacağına ümid bəsləyir. İlk baxışda belə təəssürat yarana bilər ki, bu ümidin sıradan çıxarılması daha çox effektiv nəticələrə gətirib çıxara bilər. Amma bu, qənaətimə görə, doğru yanaşma olmazdı. Əksinə, Paşinyanın məhz Qərbdən idarə olunduğu və Ermənistan cəmiyyətinin Rusiyaya nifrət üzərində kökləndiyini daha qabarıq şəkildə, həm də ciddi faktlara istinad etməklə ortaya qoymaq lazımdır. Biz Paşinyanın yox, bütövlükdə Ermənistan cəmiyyətinin cəzalandırılmasına yol açmalıyıq. Əgər Azərbaycan istisna olunmaqla, digər xarici amilləri nəzərə alsaq, Ermənistanı cəzalandıra biləcək yeganə qütb Rusiyadır. Qərb heç bir halda Ermənistanı cəzalandırmayacaq. Bunu sübuta yetirmək üçün əlavə faktlara istinad edilməsinə ehtiyac görmürəm. Kompüterin monitoru arxasında virtual qəhrəmanlıq etmək, gurultulu bəyanatlar səsləndirmək çox asandır. Belə fikirləri səsləndirən adamları cəbhə xəttinə aparsan, nəinki güllə ata, heç başlarını səngərdən belə çıxara bilməyəcəklər. Beynəlxalq hüquq tərəfindən Azərbaycanın ərazisi sayılan və hazırda işğal altında olan ərazilərdə hərbi əməliyyatlara başlamaq bizi daha az beynəlxalq təzyiqlər qarşısında qoya bilər, nəinki Ermənistanın faktiki rəhbərinin vertolyotunun vurulması. Paşinyanın Dağlıq Qarabağa vertolyotla uçması, yaxud avtomobillə getməsi nəticədir. Səbəb isə Azərbaycan torpaqlarının işğal altında olmasıdır. Bütün bu məsələlərə son qoymaq üçün isə səbəbi aradan qaldırmaq lazımdır".

**Beynəlxalq əlaqələr üzrə ekspert Elşən Mustafayev qeyd etdi ki, 25 ildən artıqdır Ermənistandan və dünyanın hər tərəfindən Dağlıq Qarabağa səfər edənlər var:** "Ermənistan istisna olmaqla, səfər edən digər ölkə vətəndaşları mütəmadi olaraq qara siyahıya salınır, Azərbaycana girişi qadağan edilir. Bu günə qədər belə olub. Paşinyan gələndən sonra etdiyi səfərlər də özündən öncə edilən səfərlər kimi qəbul edilməlidir. Bizim üçün fərqi yoxdur ora Petrosyan gedir, Sarkisyan gedir , ya da Paşinyan. Gürünən odur ki, bunun qarşısını almağın yolu yalnız torpaqların azad olunmasından keçir. Ona qədər isə olan və olacaq səfərlərə reaksiyalar verib, enerjimizi sərf etməklə hədəflərimizdən yayınmamalıyıq. Çünki Ermənistandan və digər ölkələrdən Qarabağa səfərlərin qarşısını almaq mümkün deyil. Ora həm quru yolu, həm də hava yolu ilə səfərlər edilir. Quru yolu ilə olan səfərləri izləmək, onlara əngəl olmaq mümkün deyilsə, hava yolu ilə olan səfərləri əngəlləmək olar. Amma bunun da yolu Qarabağ üzərində olan təyyarə və vertolyotları vurmaqdan keçir ki, nəticəsi sərnişin hava nəqliyyatının vurulması ilə bağlı bizə olacaq ittihamlardan keçir. Eyni zamanda bu addım Azərbaycan tərəfindən hərbi əməliyyatlara başlanılması kimi qəbul olunacaq. Amma Azərbaycan bu məsələdə psixoloji durumu xeyrimizə dəyişməkdən ötrü indiyə qədər beynəlxalq normalara söykənərək Dağlıq Qarabağ zonasının hava məkanını uçuşa qadağan zona elan etməli, kimə məxsus olmasından asılı olmayaraq icazəsiz hava məkanına daxil olan bütün növ uçuş vasitələrinin vurulacağı ilə bağlı xəbərdarlıq etməli və bu addımın atəşkəsin pozulması anlamına gəlməməsi ilə bağlı öncədən xəbərdarlıq etməklə lazım olan prosedurları keçməli idi. Bununla bağlı bütün beynəlxalq aviasiya təşkilatları, dövlətlər məlumatlandırılmalı idi. O zaman kimsə hava nəqliyyatı ilə ora gəlməyə cəsarət etməzdi. Yenə də təkrar edirəm ki, bu, yalnız hava vasitəsilə olunacaq səfərləri əngəlləyə bilər, işğal davam etdikcə quru yolu vasitəsilə olacaq səfərlər isə davam edəcək. Ona görə də bunu faciəyə çevirmək lazım deyil. 25 ildən artıq müddətdə torpaqlarımızın işğal altında olması bir faciədir. Bu günə qədər əməl olunmayan beynəlxalq normalara bu gündən sonra Ermənistanın əməl edəcəyini də gözləməməliyik. Onları buna əməl etməyə məcbur etməliyik".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# FETÖ-çülər prezident seçkisində kimə səs verəcək?

## Politoloq: "Onlar bu seçkiləri heç zaman ələ düşməyəcək fürsət olaraq qəbul edirlər və hazırlaşırlar"

**Türkiyədə gələn ay-24 iyunda keçiriləcək prezident və parlament seçkiləri yaxınlaşdıqca ölkədə bütün siyasi qüvvələr resurslarını hərəkətə gətirməkdədirlər. Ölkədə çox böyük siyasi mübarizə gedir. Seçki mübarizəsi siyasi hərarəti sürətlə artırır.**




Prezident seçkilərində 6 namizəd iştirak edir. Bunlar əlifba sırası ilə aşağıdakılardır:

**Doğu Perinçek** - Vətən Partiyasının namizədi, partiya başqanı;

**Meral Akşener** - İYİ Partiyanın namizədi, partiyanın başqanı;

Muharrem İnce - Cümhuriyyət Xalq Partiyasının (CHP) namizədi, Yalovadan millət vəkili;

**Rəcəb Tayyip Ərdoğan** - Hakim Ədalət və İnkişaf Partiyası (AKP) ilə Milliyətçi Hərəkat Partiyasının (MHP) vahid namizədi, hazırki prezident;

**Selahattin Demirtaş** - Xalqların Demokratik Partiyasının ( HDP) namizədi, İstanbuldan millət vəkili

**Temel Karamollaoğlu** - Səadət Partiyasının namizədi, partiya başqanı;

Bu seçkilərin Türkiyə, ölkə iqtidarı və müxalifəti üçün böyük əhəmiyyət kəsb etdiyi məlumdur. Belə ki, seçkilərdən sonra Türkiyə parlament sistemindən prezident sisteminə keçəcək.

Bu seçkilərin eyni zamanda 2016-cı ilin iyul dövlət çevrilişi cəhdindən sonra çox ciddi zərbələr almış, narazı düşmüş və hakimiyyətlə haqq-hesab çəkmək üçün fürsət gözləyən FETÖ-çülər üçün də əhəmiyyət daşıdığı bildirilir.

Bu barədə "Yeni Müsavat"a şərhində politoloq Qabil Hüseynli bildirdi ki, Fətullah Gülən tərəfdarlarının müqavimətini hələ də tam qırmaq mümkün olmayıb: "Bir neçə gün öncə də yüzə yaxın zabiti həbs etdilər. Belə görünür ki, dövlət orqanlarında, bütün inzibati strukturlarda, silahlı qüvvələrdə fətullahçılar hələ də qalır. Onların seçkilərdən revanş götürmək üçün istifadə etməyə çalışmaları istisna deyil. Türkiyənin müvafiq rəsmi strukturlarının dəfələrlə yaydığı məlumatlara əsaslansaq, 2016-cı ilin iyulundan indiyə qədər yüz minlərlə FETÖ-çü işdən çıxarılıb. Həbs edilənlər, işdən çıxarılanlar və onların hər birinin xeyli sayda qohumları, yaxınları şübhəsiz ki, iqtidardan narazıdırlar. Onlar seçkiləri revanş götürmək üçün imkan saya bilərlər. Ən azından şübhə doğurmur ki, bu yaralanmış təbəqə seçkidə hakimiyyətin namizədinə, hakim partiyaya səs verməyəcəklər.

FETÖ-çülərin yenidən hərəkətə keçməsi istisna deyil. Bunda ABŞ, İsrailin və bir sıra Avropa dövlətlərinin də maraqlı olduqlarını nəzərə alsaq, revanş cəhdi istisna edilməməlidir.

Vaxtilə Gülən hərəkatına daxil olan, amma bütövlükdə işin mahiyyətini dərk eləməyən kifayət qədər sıravi məmurlar var. Onlar müxtəlif strukturlarda, hətta orduda qalmaqda davam edirlər.

Üzə çıxmayan, aşkar edilməyən xeyli sayda gülənçilər hələ də müxtəlif sahələrdə qalırlar. Bütövlükdə o cəbhəyə bağlı olmuş insanların sayı kifayət qədər yüksək rəqəmlərlə ifadə olunur".

FETÖ-çülərin və onların tərəfdarlarının seçkilərdə kimə və hansı partiyaya səs verəcəkləri ehtimalının yüksək olmasına gəlincə, Q.Hüseynli Türkiyədə keçirilən sosioloji sorğuların nəticələrinə əsaslanaraq bildirdi ki, bu gün 16 faizə yaxın seçicinin mövqeyi hələlik müəyyənləşməyib. Bunların içərisində xeyli fətullahçı olduğunu söyləmək mümkündür: "Düşünürəm ki, onlar hələlik manevr edirlər. Böyük ehtimalla onlar İYİ Partiyaya və onun prezidentliyə namizədi Meral Akşenerə səs verəcəklər. Akşener fətullahçı olmasa da namizədlər içərisində fətullahçıların səsinin gedəcəyi namizəd ola bilər. Ümumiyyətlə, bu xanım siyasətçinin reytinqinin günbəgün artmaqda davam etdiyi müşahidə olunur. Türkiyədə keçirilən rəy sorğuları da bunu göstərir.

Fətullahçıların müəyyən qisminin səslərinin isə CHP-yə və onun namizədi Muhərrem İncəyə də gedəcəyi gözlənilir. Bir şey tamamilə dəqiqdir ki, FETÖ-çülər maksimum çalışacaqlar Ərdoğan və AKP seçkidə qalib gəlməsin. Bunun üçün bütün imkanlarını cəlb edəcəklər. Onlarda belə bir düşüncə var ki, kim olur-olsun təki Ərdoğan olmasın. Bu seçkiləri FETÖ-çülər heç zaman ələ düşməyəcək fürsət olaraq qəbul edirlər.

Seçkilər axıra qədər şəffaf keçiriləcəksə, ikinci turun olacağı istisna deyil. İkinci turun olacağı halda prosesin çox gərgin məcraya yön alacağı və şiddətli siyasi qarşıdurmalar şəklində keçəcəyi gözlənilir. Gülən tərəfdarları bu məsələdə ən aktiv qüvvələrdən biri kimi çıxış edə bilərlər. Onlar meydana çıxmaq üçün vəziyyətin yetişməsini gözləyirlər. Hazırda "arxa cəbhədə" əhali ilə "cəmaətlə" işləyirlər.

FETÖ-çülərin 2016-cı ildəkinə bənzər çevriliş cəhdi etmək imkanları artıq yoxdur. Onlar, sadəcə olaraq, seçkiləri siyasi revanş üçün fürsət kimi görürlər. Seçkilər yekunlaşsaydı və ölkədə sabitlik olsaydı, türk xalqının başı bəlalardan qurtarardı".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# İşğalçının Naxçıvan təxribatı - diqqəti Qarabağdan yayındırmaq istəyir?

## Muxtar respublikadakı hərbi mövqelərimizi Ermənistanın hədəfə almasında əsas məqsəd; **politoloq:** "Türkiyə Xarici İşlər Nazirliyinin Ermənistana ünvanlı xəbərdarlıq mesajına ehtiyac var..."

**Ermənistanın yeni baş naziri Nikol Paşinyanın diqqəti daxili problemlərdən yayındırıb hakimiyyətini qoruyub-saxlamaq üçün cəbhə xəttində gərginliyi artıracağı barədə təxminlərimiz özünü doğrultdu. Mayın 20-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Naxçıvan Muxtar Respublikası sahəsində düşmən tərəfin növbəti təxribatının qarşısını alarkən, döyüş tapşırığını yerinə yetirən zaman Azərbaycan ordusunun hərbi qulluqçusu əsgər Adil Tatarov şəhid oldu.**





Bundan əlavə, Paşinyanın Xankəndinə gəlişindən və burada jurnalistlər qarşısına çıxıb Azərbaycana ultimatum verməsindən sonra işğalçı ölkənin xarici işlər və müdafiə nazirləri də qeyri-qanuni şəkildə işğal altındakı ərazilərimizə gəldilər. Həmçinin işğal zonasında hərbi təlimlər keçirildi. Bütün bunlar Ermənistanın açıq şəkildə Azərbaycanı savaşa çəkmək niyyətinin nümayişidir. Üstəlik, bunlar da kifayət etmədi, Ermənistanın xarici və müdafiə nazirləri Zöhrab Mnatsakanyala Davit Tonoyan Naxçıvanla sərhədə gedib təxribat planını işləyib-hazırladıqdan sonra Azərbaycan əsgəri şəhid oldu.

Elə Azərbaycan Müdafiə Nazirliyinin hadisə ilə bağlı açıqlamasında da bu barədə bildirilib. Müdafiə Nazirliyi bəyan edib ki, törədilən təxribatın arxasında bir neçə gün əvvəl qoşunların bu istiqamətdə yerləşən qarşıdurma xəttində səfərdə olan Ermənistanın yeni təyin edilmiş müdafiə və xarici işlər nazirləri birbaşa dayanır və bu təxribatın onların göstərişi ilə həyata keçirilməsi istisna olunmur.

Yeri gəlmişkən, işğalçı ölkə son zamanlar bir neçə dəfə Azərbaycan ordusunun guya Naxçıvan, Qazax və Tovuz istiqamətindən qarşı tərəfi atəşə tutması barədə təxribat xarakterli bəyanatlar yayırdı. O zaman da qeyd etmişdik ki, düşmən bununla özünün hansısa təxribatçı hərəkətlərinə, cinayətlərinə zəmin hazırlamaq istəyir, belə halları əvvəllər də müşahidə etmişik. "Erməni tərəfinin yaydığı məlumatlar həqiqətə uyğun deyil, gələcək təxribatlar üçün zəmin yaradır və bu kimi xəbərlərin davamlı olaraq yayılacağı istisna edilmir". Bu isə Müdafiə Nazirliyinin ötən açıqlamalarındandır.

Ancaq görünən budur ki, işğalçı ölkənin təxribatları bununla bitməyəcək. Artıq Ermənistanda həyasızlıq o həddə çatıb ki, Dağlıq Qarabağ və ətraf rayonlarla kifayətlənməyərək Naxçıvanı da "geri qaytarmaq"la bağlı çağırışlar səslənir. Beynəlxalq hüququ tapdayaraq Azərbaycan ərazilərini 25 ildir işğalda saxlayan Ermənistan cəzasızlıq mühitinin davam etməsi şəraitində daha da irəli gedərək, Azərbaycanın digər tarixi ərazilərinə də iddiasını yenidən önə çıxarmağa çalışır. Bu barədə iddialar əvvəllər də olub, hətta bir əsr əvvəl də ermənilər xarici havadarlarının dəstəyi ilə Naxçıvana sahiblənmək istəyiblər.

"Yeni Müsavat" xəbər verir ki, bu dəfə politoloq Levon Şirinyan yerli mətbuata açıqlamasında sərsəm iddialar səsləndirib. O, ölkənin yeni xarici və müdafiə nazirlərinin Naxçıvanla sərhədə getməsini təqdir edərək, nazirlərin sələflərini tənqid edib. Hətta sabiq XİN rəhbəri Edvard Nalbəndyanın aprel döyüşlərindən sonra itdiyini xatırladıb. Bu sərsəm ekspert vaxtilə Rusiyanın Naxçıvanı "türklərə verdiyini" iddia edib və Ermənistanı beynəlxalq səviyyədə bu əraziləri "geri qaytarmaq"la (?!) bağlı hərəkətə keçməyə çağırıb.

Əslində bu kimi iddiaların üzərindən boş verib keçmək də olmaz. Çünki vaxtilə zori balayanlar da Qarabağla bağlı iddialarını bu şəkildə tirajlamışdılar.

*****

Ermənilərin Naxçıvan istiqamətindən sarsıdıcı zərbə alacaqlarından dolayı təşviş keçirdiyi də faktdır. Qarabağ savaşı başlasa, heç şübhəsiz, bu dəfə Naxçıvandakı ordumuz da hərəkətə keçəcək və "əl içində"ki İrəvan hədəfə alınacaq. Odur ki, düşmən himayədarlarının dəstəyini qazanmaq, başının üstündə təhlükəsizlik çadırı qurmaq üçün dəqiqəti bu cəbhəyə yönəldir. Elə Rusiyanın Ermənistana aşağı radiuslu "Tor M2" zenit-raket komplekslərini göndərmək qərarı həm də bununla əlaqədardır. Rusiya bununla Qərbə meyllənən Ermənistanı növbəti dəfə öz çətiri altına çəkməyə çalışır. Ermənilər də daha çox şivən qoparmaqla ağalarından əlavə dəstək qazanacaqlarını zənn edirlər.

Bir neçə gün əvvəl Azərbaycan prezidenti İlham Əliyev Naxçıvanda hərbçilərimizlə görüşü zamanı muxtar respublikada uzaqmənzilli raketlərə malik qüdrətli ordumuzun olduğunu bəyan etdi və dolayısı ilə düşməni ağıllı olmağa çağırdı. Lakin görünür, ermənilər havadarlarından aldığı təlimata uyğun olaraq daha irəli getməyə çalışırlar. O da istisna deyil ki, indi ermənilər Naxçıvana olan iddialarını qabartmaqla Qarabağ məsələsini arxa plana keçirməyə cəhd edirlər.

*****

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a dedi ki, cəbhə bölgəsində vəziyyətin gərginləşəcəyi gözlənilən idi:** "Ancaq Naxçıvanda atəşkəsin pozulması qeyri-adi idi. Naxçıvan istiqamətində uzun müddət şəhid verməmişdik. Azərbaycan prezidenti Naxçıvana səfər edərək Ermənistanın ünvanına xəbərdaredici açıqlama verib geri qayıtdıqdan sonra Naxçıvanda şəhid verdik. Bu, təsadüfi deyil. Görünür, İlham Əliyevin Naxçıvandakı açıqlamasına bu şəkildə "reaksiya" verdilər. Özü də bu o zaman baş verdi ki, İlham Əliyevdən sonra Ermənistanın güc nazirləri Naxçıvanla sərhədə baxış həyata keçirdilər. Deməli, təxribatı əvvəlcədən planlaşdırıblar. Bu, Ermənistanın yeni hakimiyyətindən Azərbaycana verilən ilk "mesaj" idi. Doğrudur, cavabını dərhal aldılar, ancaq bu cavab birə-bir olmamalıdır, vaxtilə müdafiə naziri Zakir Həsənovun dediyi kimi, bir şəhidimizin qarşılığında onlarla düşmən hərbçisi neytrallaşdırılmalıdır. Bu dəfə Azərbaycan ordusu cəbhə bölgəsindən Nikol Paşinyana mesaj yollamalıdır. Onların cavabı Naxçıvandan verilməlidir".

Fakt budur ki, Ermənistan Naxçıvana qarşı iddialar irəli sürməklə, yaxud muxtar respublikanın ərazilərini hədəfə almaqla Qars müqaviləsinin şərtlərinə görə bu əraziləri özünün qarantiyası altına alan qardaş Türkiyənin də üzərinə getməyə cəhd edib. Bir müddət öncə Türkiyənin baş naziri Bakıda olarkən "Əgər dost və qardaş Azərbaycana buradan başqa bir təhdid yönələrsə, yaxud Türkiyəyə bu ərazilərdən bir terror təhdidi yönələrsə, qarşılığı mütləq olacaq", - deyə bəyan etmişdi. Ankara daim Qarabağ məsələsində prinsipiallıq nümayiş etdirib. Hətta N.Paşinyan hakimiyyətə gələndən sonra Ankaraya xitabən heç bir şərt irəli sürmədən danışıqlara başlamaq çağırışı etsə də, Türkiyə Qarabağ torpaqlarını azad etməyin zəruriliyini xatırlatmışdı. İndi Naxçıvan təxribatı da təsadüfi deyil.

**Politoloq E.Şahinoğlu da hesab edir ki, Naxçıvanda atəşkəsin pozulması Türkiyəni də narahat etməlidir:** "Mənə elə gəlir ki, Türkiyə Xarici İşlər Nazirliyinin Ermənistana ünvanlanan xəbərdarlıq mesajına ehtiyac var. Ermənistan hakimiyyəti yerini bilməlidir".

**Naxçıvan təxribatının arxasında Rusiyadakı dairələrin olması da müzakirə mövzusudur. Ekspertimiz qeyd etdi ki, bu işin içində Rusiyadakı maraqlı mərkəzlərin olmasından da şübhələnir:** "Məsələn, bir müddət əvvəl Abxaziyanın "prezidenti" Raul Xadjimba və Rusiya XİN-in 4-cü MDB idarəsinin rəisi Aleksey Pavlovski Dnestryanı, Cənubi Osetiya, Dağlıq Qarabağ separatçılarının təmsilçiləri ilə görüşüblər. Separatçıların birgə nə müzakirə etdikləri məsələnin başqa tərəfidir. Hələlik görüşün özü haqqında danışaq. Azərbaycan **XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev** haqlı olaraq bu görüşü regionda sülhə və təhlükəsizliyə ciddi zərbə kimi qiymətləndirib. Buna cavab olaraq da Rusiya XİN-in məlumatında uzun cümlə yer alıb: "Rusiyanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi konkret beynəlxalq tədbirlərdə Azərbaycanın işğal edilmiş torpaqlarında yaradılan separatçı rejimin nümayəndələri ilə təsadüfən "üz-üzə" gəlmək olar deyə iştirakdan imtina etməyi heç vaxt nəzərdə tutmayıb". Bu açıqlama ilə demək istəyirlər ki, Rusiya rəsmilərinin Dağlıq Qarabağ separatçılarının təmsilçiləri ilə "təsadüfən üz-üzə" gəlmələrində heç bir qəbahət yoxdur. Birinci, bu "təsadüf" deyil, Rusiya XİN-in diplomatı separatçılarla görüşə bilərəkdən qatılıb. İkincisi, Abxaziyada separatçıların toplaşması da Moskvanın təlimatıyla həyata keçirilib. Bunu Abxaziya özbaşına edə bilməzdi, çünki bu bölgə tamamən Rusiyanın nəzarəti altındadır. Eləcə də Naxçıvanda atəşkəsi pozan Ermənistan da öz havadarına güvənir".

**"Ermənistan-Azərbaycan sərhədinin Naxçıvan sahəsində Silahlı Qüvvələrimizin hərbi qulluqçusunun şəhid olması o deməkdir ki, Ermənistan köhnə siyasətindən əl çəkməyəcək". Bu sözləri isə axar.az-a Ermənistan-Azərbaycan sərhədinin Naxçıvan sahəsində Silahlı Qüvvələrimizin hərbi qulluqçusunun şəhid olması ilə bağlı danışan İlqar Vəlizadə deyib.**

**Ekspert bütün hallarda həm sərhəddə, həm də cəbhədə gərginliyin davam edəcəyini bildirib:** "Ermənistan-Azərbaycan sərhədinin Naxçıvan sahəsi münaqişə zonasından uzaqdır və bu cür halın baş verməsi çoxlu suallar meydana gətirir. Hadisənin məhz bu ərəfədə baş verməsi təxribatın qəsdən törədildiyini ortaya qoyur. Silahlı Qüvvələrimizin hərbi qulluqçusunun şəhid olması o deməkdir ki, Ermənistan köhnə siyasətindən əl çəkməyəcək. Qarşıda təxribatlar təkcə cəbhədə deyil, Azərbaycan-Ermənistan dövlət sərhədinin Naxçıvan sahəsində də gözləniləndir. İndiki Ermənistan hakimiyyəti daha sərt mövqedə dayanır, yaranmış reallıqları dərk etmir və Azərbaycanla bütün istiqamətlərdə münasibətlərin gərginləşməsinə maraq göstərir. Azərbaycan bütün bu təxribatlara lazımı cavab verir və verəcək".

**Politoloq qeyd edib ki, Azərbaycan bu məsələni danışıqlar prosesində gündəmə gətirəcək:** "Bununla bağlı danışıqlar prosesində müəyyən korrektələr ediləcək. Hesab edirəm ki, Azərbaycan tərəfindən bundan sonra daha sərt mövqe nümayiş etdiriləcək".

N.Paşinyan Qarabağda olarkən bir bəyanat vermişdi və həmin bəyanat hətta Ermənistanda da narahatlıq doğurmuşdu. "Mənim Qarabağ tənzimlənməsinə dair bəyanatlarımda çox ciddi yeniliklər vardır, ən ciddisi ondadır ki, mən Azərbaycan prezidenti ilə Ermənistan Respublikası adından danışıqlar aparmağa hazıram, Artsax Respublikası (tanınmamış DQR-red.) adından isə danışıqları respublika prezidenti simasında Artsax hakimiyyəti aparmalıdır", - Ermənistanın yeni baş naziri bildirmişdi. Bununla da Paşinyan Ermənistanın Qarabağ məsələsində münaqişə tərəfi olduğunu rəsmən etiraf etmişdi və hətta eks-prezident Levon Ter-Petrosyandan sərt təpki görmüşdü. Ancaq Naxçıvan təxribatı və bu istiqamətindən düşmənin silahları işə salması İrəvanın nəinki münaqişə tərəfi olduğunu, hətta Naxçıvana iddia edən, beynəlxalq hüquqa məhəl qoymayan cinayətkarların rəhbərlik etdiyi, islaholunmaz subyektə çevrildiyini nümayiş etdirdi. Bunun qarşılığında isə sərt cavabların verilməsinin alternativi yoxdur artıq. Azərbaycanın Xarici İşlər və Müdafiə nazirliklərinin bəyan etdiyi kimi, baş verənlərin məsuliyyətini Ermənistan daşıyacaq...

Yeni Müsavat
N 111 (7000) 22 may 2018

# İŞİD-in Cənubi Qafqazda "xortlaması": real təhlükə, yoxsa...

**2014-cü ilin yanvarında "müstəqilliyini", 2014-cü ilin iyununda isə "yeni xilafət" yarandığını elan etmiş İraq Şam İslam Dövləti (İŞİD) adlı terror təşkilatı küncə sıxıldıqca iddiaları da kiçilir.**

## Arzu Nağıyev: "Yeni təhlükə xəbərləri Qərbin xüsusi xidmət orqanlarının xəttinə daha çox bənzəyir"



İraq ərazisində dövlət yaratmaq iddiası ilə ortaya çıxan terror təşkilatı bir neçə gün əvvəl dünya futbolunun 2 əsas ulduzunu - Lionel Messi və Kriştiano Ronaldonu hədəfə götürdüyünü elan etdi. Halbuki qarşılarına qoyduqları ilkin məqsədlə 2 məşhur futbolçunun öldürülməsi kimi sərsəm açıqlama bir-birinə ziddir. Ekspertlər isə milyonlarla fanatı olan hər 2 futbolçunun hədəfə alınmasının təsadüfi olmadığını bildirirlər. Bir vaxtlar terror təşkilatının hədəflərində Cənubi Qafqaz regionunda da xilafət qurulması iddiaları da vardı. Hazırda isə İŞİD Cənubi Qafqazdan vaz keçib 2 futbolçunun öldürülməsi iddiasını ortaya atıb. Bu, İŞİD-in Cənubi Qafqaza nüfuz edə bilməməsi ilə əlaqədardır, yoxsa başqa səbəblər var?

**Təhlükəsizlik üzrə ekspert Arzu Nağıyev deyir ki, İŞİD-in Cənubi Qafqazda kifayət qədər dayaqları olub:** "İŞİD-ə Cənubi Qafqazda biət etmiş qruplaşmalar vardı. Hazırda İŞİD-in əsas istiqaməti ərəb dövlətləri, İraqdır. İŞİD-in Cənubi Qafqazda qarşısına qoyduğu məqsədlərə çatması qeyri-mümkün idi. Onların əsas məqsədləri dövlət yaratmaq idi. Cənubi Qafqazda isə onlara sədaqət andı içən "İmarat Qafqaz" terror qrupu vardı. Bu terror qrupu 2014-cü ildə Xorasan əmirliyi yaradıb. Bura Əfqanıstan, İran, Türkmənistan, Özbəkistan və Tacikistan əraziləri daxil edilib. Terrorçular əsas məqsədlərinin bu ərazilərdəki qanuni hökumətləri devirmək olduğunu bəyan ediblər. Amma Rusiya xüsusi xidmət orqanları Cənubi Qafqazda vəziyyətə tam nəzarət edirlər. İŞİD bu günə qədər səs-küylü terror aksiyaları keçirə bilməyiblər. Bu gün Cənubi Qafqazda dövlətlər güclüdür, güclü orduları var. İŞİD-in qarşısına çıxa biləcək nizami qüvvələr mövcuddur. İŞİD-in yaxın perspektivdə Cənubi Qafqazda peyda olması gerçəklikdən uzaqdır. İŞİD qarşısına qoyulan müəyyən funksiyaları yerinə yetirib. Son vaxtlar verilən səs-küylü bəyanatlar da İŞİD-in mövcudluğunu ortaya qoymaq baxımından növbəti bir bəyanatdır. Düşünürəm ki, burada əsas məsələ Messi və Ronaldo deyil. Ümumiyyətlə, Qərb dünyası Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalardan əlavə bu ölkədə keçiriləcək dünya çempionatını da təhdidlərə məruz qoymağa çalışır. Hər iki dünya ulduzunun, bahalı futbolçunun hədəf seçilməsinin əsas səbəbi də odur ki, bu oyunçular çempionatda iştirak etməzlərsə, yarışa olan maraq kəskin şəkildə azalacaq. Bu baxımdan ən mühüm şəxsləri seçiblər. Başqa oyunçuların adlarını çəksələr, bu, diqqət çəkməzdi. Bu, Qərbin xüsusi xidmət orqanlarının xəttinə daha çox bənzəyir. Ona görə də həmin şəxslərin adlarını çəkirlər. Həm də İŞİD-in mövcudluğunu, varlığını bu şəkildə nəzərə çarpdırırlar. Aydındır ki, belə bir vacib çempionatın keçirilməsi üçün hər cür təhlükəsizlik məsələləri həll olunacaq. Şəxsi mühafizədən tutmuş digər məsələlərə qədər hər şey diqqətdə olacaq. Bu, siyasi gedişdir. Əsas məqam ondan ibarətdir ki, çempionata təsir edən ümumi addımlar atılsın. Burada başqa bir addım ola bilməz. Açığı, nəsə edə biləcəkləri inandırıcı görünmür. Çünki Rusiya bu istiqamətdə çoxsaylı terror aktlarının qarşısını ala bilib. Bu istiqamətdə onların səriştəsi var. İŞİD mütəmadi olaraq özünü bürüzə verməklə, onlara biət etmiş təşkilatları yenidən üzə çıxarmaqla məşğuldur. İŞİD-in bu gün təchizat məsələsi də əvvəlki deyil. Onlara ilkin dövrlərdə elə şərait yaratmışdılar ki, oğurluq neft alveri ilə məşğul olurdular. Müxtəlif dövlətlərin neftli ərazilərini ələ keçirib çox ucuz qiymətə satırdılar. Hazırda isə İŞİD belə imkanlardan məhrum edilib. Bu arada neftin qiymətinin artması da təsadüfi deyil. İŞİD-in taladığı neft artıq bazara çıxmır. Terror təşkilatı talanmış neft alverindən də məhrum edilib. Dəstəkçilərinə də artıq o qədər də lazım deyillər. İŞİD-dən istifadə edib müəyyən məqsədlərə çatmaq üçün addımlar atılırdı, təbii ki, İŞİD-ə də böyük maliyyə imkanları açılırdı. Hazırda isə İŞİD küncə sıxılmış durumdadır. İŞİD ən güclü dövründə Cənubi Qafqaza nüfuz edə bilmədi. Bunda xüsusi xidmət orqanlarının rolu danılmazdır".

Yada salaq ki, Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi Mədət Quliyev İŞİD-lə bağlı açıqlamalarından birində deyib ki, terror təşkilatının sıralarında 900-ə yaxın azərbaycanlı olub. Onlardan 85-i hüquq-mühafizə orqanları tərəfindən saxlanılıb. 195 nəfər Azərbaycan vətəndaşlığı hüququndan məhrum edilib, bir çoxu isə döyüş zamanı həlak olub. İraqda Azərbaycan vətəndaşlarının kütləvi olduğu yerdə 300-ə yaxın azərbaycanlı məhv edilib.

❑ **E.HÜSEYNOV, "Yeni Müsavat"**

# İslam ərəbçilikdirmi...

## İslam dini 10 əsrdən çoxdur müsəlman xalqlarının ortaq mədəniyyətini formalaşdırır

**Azərbaycanda hər il Ramazan və Məhərrəm aylarında bir qayda olaraq İslam dininə hücumlar artır. Bəlli olur ki, kimlərsə din və dindarları xoşlamır, hətta nifrət edir. Və bunu sosial şəbəkələrdən bürüzə verir. Demək olar ki, hər il (bəzən daha qabarıq, bəzən isə sönük formada - K.R.) eyni reaksiyaları müxtəlif adamlardan görürük.**



Builki Ramazan ayı başlayandan İslam dininə və dindarlara qarşı təhqiramiz fikirlər yenidən tirajlanmağa başlayıb. Amma bu hərəkətlərin bəziləri daha sərt olur. Ancaq "Uşaq və Tələbə Gənclər Dünyası" İctimai Birliyinin sədri Bəxtimşah Tağıyevanın din və dindarları hədəf alan fikirləri, necə deyərlər, həddi aşıb.

Yeri gəlmişkən, adı keçən QHT sədri ötən ilin iyun ayında qalmaqallı status yazaraq Azan səsinə qarşı olduğunu bəyan etmişdi. Onun bu fikirləri sosial şəbəkələrdə və mətbuatda müzakirə mövzusu olan zaman QHT sədri həmin statusunu silmişdi. Açıqlamasında isə əvvəlcə bildirmişdi ki, onu bu fikirlərinə görə tənqid edənlər savadsız cahillərdir. Təşkilat rəhbəri ona irad bildirənləri Azərbaycanda olan geylərə, erməniləre, qısa şalvarlılara, qara çarşablılara, vəhhabilərə də etiraz etməyə çağırmışdı. Amma sonradan təşkilat rəhbəri məlum fikirləri onun adından başqasının yazdığını deyib.

Bu dəfə isə B.Tağıyeva facebook-da Ramazan ayı və Oruc tutulması ilə bağlı müzakirələrdə aqressivlik nümayiş etdirərək İslama inananları şərəfsiz adlandırıb. Sitat: "İnananlar şərəfsizdir. Ərəbə qul olmaq ən alçaq şərəfsizlikdir. İnsan azad olmalıdır".

Əlbəttə, yuxarıda qeyd olunan fikirlər başdan-başa təhqirdən ibarətdir. İstənilən halda insanların inanc azadlığı var. Kimin nəyə inanmasına bu şəkildə reaksiya verilməməlidir. Faktiki olaraq cinayət tərkibli bir hərəkətdir...

Ancaq bu yazı həm də bir ənənəvi sualı gündəmə gətirir. İslam ərəbçilikdirmi? Deməli olar ki, müsəlmanlara qarşı olan, dindarlara qarşı aqressiv münasibəti ilə seçilən hər kəs İslam və ərəbləri bir tutur. Müsəlmanları ərəbləri təqlid etməkdə, onların təsirinə düşməkdə ittiham edir. Doğrudanmı belədir? Müsəlmanlar ərəbləri təqlid edirmi?

3 səmavi dindən musəviliк istisna olmaqla, İslam və Xristianlıq bəşəri dindir, hansısa etnik və ya coğrafi sərhədlərlə məhdudlaşmır. Yalnız yəhudilər musəviliyi "yəhudi dini" kimi yaşadır, digər xalqların içərisində musəviliyi qəbul edən şəxsləri yəhudi hesab etməklə musəviliyi yəhudilərin dininə çeviriblər. Ancaq xristianlıq və İslam haqda bunu demək olmaz. Hər iki din hazırda planetin bütün nöqtələrinə yayılıb, xristianlar 2,2 milyard, müsəlmanların sayı isə 1,6 milyard nəfəri keçib.

Konkret olaraq müsəlmanların ərəbləri yamsılamasına gəlincə, bu iddianın heç bir əsası yoxdur. Məsələ ondadır ki, İslam dini ərəb yarımadasında meydana çıxsa da, ərəb mahiyyətli olmayıb. Doğrudur. İlkin islam dövründə və sonralar da bir sıra idarəçilik metodları, ənənələrdə ərəb adətləri də əsas alınıb. Ancaq bu ümumi tendensiya olub. Çünki ilk illərdə belə İslama ərəblər qədər və hətta daha çox Sasani dövlətinin, yaxud da Bizansın təsiri olub. Əlbəttə, xüsusən də Əməvi sülaləsi zamanında ərəb təsiri hiss olunub. Ancaq yeri gəlmişkən qeyd edək ki, İslam dövlətinin, yəni Xilafətin mərkəzi yalnız 35 ilə qədər Mədinə şəhəri olub. 4-cü xəlifə İmam Əlinin (ə) zamanında isə artıq paytaxt İraq ərazisinə, Kufə şəhərinə köçürülür. Daha sonra isə siyasi mərkəz Dəməşq olur və 90 illik Əməvi sülaləsinin başa çatmasından sonra yenidən İraqa qaytarılır, Abbasilərin paytaxtı İraq olur. 9-cu əsrdən sonra isə Abbasi xəlifələrinin əhəmiyyəti azalır, sarayda farslar, orduda isə türklər dominant olmağa başlayır. Bu dövrdən sonra İslam dini həm də digər xalqların vasitəsilə yayılır və güclənirdi. Sonrakı 1000 ildə də belə oldu.

Bundan başqa, İslam dini yayıldığı ölkələrdə yerli adət-ənənələrlə də qaynayıb qarışıb. Bu səbəbdən də Ərəbistandakı islamla, məsələn, Orta Asiyadakı və ya Qafqazdakı islam arasında fərq olub. Təbii ki, toxunulmaz olan "qırmızı xətlər" istisna olmaqla. İslamın əsas şərtlərinə toxunmadan istənilən xalqın dini qəbul etdikdən sonra adət və ənənələrin uyğunlaşması prosesi gedib.

Və ən nəhayət, İslamın elan etdiyi əsas prinsiplər ərəb və ya başqa millətin adət-ənənələri demək deyil. Əsas prinsiplər hər zaman dəyişməzdir və burada hansısa etnik qrup, yaxud da xalqın təsirindən danışmaq olmaz. Bugünkü Avropa xristianları 2 min il əvvəlin Qüds və ya Nazaret (Həzrət İsanın vətəni - K.R.) şəhərindəki yəhudilərini nə qədər xatırladırsa, Azərbaycan və ya qeyri ölkənin müsəlmanları ilə ərəblər də bir-birilərinə o qədər bənzəyirlər. Ancaq yuxarıda qeyd etdiyimiz kimi, müsəlmanlar 8-9-cu əsrlərdən sonra ortaq bir mədəniyyət formalaşdırıb. Bu mədəniyyətin qurulması bütün müsəlman xalqlarının əməyidir, təbii ki, burada ərəb, fars, türk, kürd, hind elementləri belə müxtəlif formada təzahür edir. Müsəlman adlarından tutmuş, dini mərasim, ədəbiyyat, elm, musiqi və digər müxtəlif sahələrdə bu təsir özünü hiss etdirir.

Ancaq aydın məsələdir ki, bəzi cərəyanlarda ərəb elementləri daha çoxdur. Bundan başqa, bir qayda olaraq insanlar dini təhsil aldıqları ölkələrin də təsirinə düşə bilirlər. Yəni məsələn, İranda dini təhsil almış şəxslə Səudiyyə Ərəbistanında təhsil almış şəxsin davranış, tədrisində təhsil aldığı ölkənin elementləri özünü bürüzə verir. Ancaq bu lokal təsirlərdir. İslam dini 10 əsrdən çoxdur ki, bir xalqın dini olmaqdan çıxaraq planetin bütün nöqtələrinə yayılmış ümumbəşəri bir dindir.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 111 (7000) 22 may 2018

**Yeni iş yerlərinin açılması hökumət üçün hər zaman prioritet olub. Xüsusən də 2015-ci ildən sonra ölkədə yaşanan iqtisadi böhran fonunda, qeyri-neft sektorunun inkişafı ilə bağlı atılan addımların başlıca məqsədlərindən biri də yeni iş yerlərinin açılması və məşğulluq probleminin aradan qalxması idi. Hökumətin 2017-ci ilin yekunlarına dair hesabatında da bildirilir ki, yola saldığımız ildə 221 min yeni iş yeri açılıb ki, onların 177 mini daimi iş yeridir. Son illər ərzində açılan iş yerlərinin sayına görə bu, rekord göstərici kimi qiymətləndirilib. Ötən ilin yekunlarına görə Azərbaycanda işsizlik 5 faizdir.**

# Hər il 100 min daimi iş yeri açmaq üçün nə etməli...

## Pərviz Heydərov: "Yeni istehsal sahələri yaradılmalıdır, sahibkarlıq inkişaf etməlidir"

## Samir Əliyev: "Alternativ qiymətləndirmə olmadığından bu statistikanın reallığı nə dərəcədə əks etdirməsi haqqında fikir söyləmək çətindir"





Yeni iş yerlərinin yaradılması ilə bağlı baş nazirin müavini Əli Əhmədovun səsləndirdiyi fikirlər isə birmənalı qarşılanmayıb. Nazir müavininin açıqlamasına görə, son 15 ildə Azərbaycanda 1,9 milyon yeni iş yeri yaradılıb. "APA-Economics"in məlumatına görə, "Dayanıqlı İnkişaf Məqsədlərinə doğru: davamlı inkişafın və layiqli əməyin təbliği" konfransında çıxış edən Əli Əhmədov bildirib ki, bu əmək qabiliyyətli əhalinin 40 faizi deməkdir: "Hər il Azərbaycanda əhali 1,1-1,2% artır. Bu da o deməkdir ki, Azərbaycanın əmək bazarına hər il 100 mindən çox yeni iş qüvvəsi daxil olur. Bu, Azərbaycanın mövcud imkanları və Azərbaycanın bütövlükdə əhalisi baxımından yanaşıldıqda kifayət qədər böyük rəqəmdir. Qarşımızda duran əsas hədəflərdən biri budur ki, hər il Azərbaycanda 100 mindən az olmayan iş yeri yaradılmalıdır ki, Azərbaycanda insanlarımızın əmək fəaliyyəti məşğulluğunun təmin edilməsi istiqamətində hökumətin qarşıya qoyduğu məqsədə nail olmaq mümkün olsun. Azərbaycanda əhalinin 45 faizdən çoxu kənd yerlərində yaşayır və kənd təsərrüfatı ilə məşğul əhali bütövlükdə böyük çəkiyə malikdir".

Bəs görəsən, bu rəqəm nə dərəcədə realdır? Hər bir il ərzində 100 min daimi iş yerinin yaradılması Azərbaycanın hazırkı iqtisadi durumu baxımından mümkündürmü?

**"Yeni Müsavat"a açıqlamasında bu sualı cavablandıran iqtisadçı ekspert Samir Əliyev bildirdi ki, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması baxımından yeni iş yerlərinin açılması çox vacibdir:** "Hökumət hər il açıqlama verir ki, müəyyən sayda yeni iş yerləri açıldı. Əlbəttə, bunların bir qismi mövsümi xarakterli iş yerləri olur, bir hissəsi isə daimi. Ancaq təbii ki, bu statistika ilə bağlı alternativ qiymətləndirməyə ehtiyac var. Alternativ qiymətləndirmə olmadığından bu iş yerlərinin sayının reallığı nə dərəcədə əks etdirməsi haqqında fikir söyləmək çətindir. Qanunvericilik baxımından yeni müəssisələrin yaradılması çox asandır. Məsələn, bu gün hər hansı bir A şirkəti yaradılır, bir müddət sonra ləğv edilir, sonra isə yerində B şirkəti yaradılır. Belə çıxır ki, B şirkəti yarananda artıq yeni iş yeri yaradıldı. Bu kimi hallar da monipulyasiya etməyə imkan verir. O baxımdan nə qədər yeni iş yerlərinin yaradılması ilə bağlı məsələnin qiymətləndirilməsində vətəndaş cəmiyyətinin, QHT-lərin də iştirak etməsinə ehtiyac var. Çünki bir sıra hallarda rəqəmlər reallığı tam əks etdirmir. Hər il bu qədər iş yerlərinin açılması ilə bağlı məlumatlar belə bir təəssürat yaradır ki, artıq işsizlik problemi yoxdur. Əslində isə elə deyil, regionlarda kifayət qədər işsizlik var. Bu statistikada göstərilən iş yerlərinin əksəriyyəti qısamüddətli iş yerləridir".

**İqtisadçının fikrincə, bu hesablamaların metodologiyası da çox önəmlidir ki, hansı hallarda insan işsiz hesab edilir:** "Əgər şəxsin hər hansı pay torpağı varsa, avtomatik olaraq işsiz statusundan çıxır. Bu gün regionlarda nə qədər insan var ki, pay torpaqları var, lakin onu əkib becərmir. Bununla yanaşı, işsiz olsa da, işsiz statusunda qəbul olunmur. Metodologiya dəyişməlidir və beynəlxalq metodologiyaya uyğunlaşdırılmalıdır. Hazırda Azərbaycanda işsizlik 5 faizdirsə və Avropada da işsizlik eyni səviyyədədirsə, bu artıq real deyil. Çünki ölkəmizdə işsizlik səviyyəsi Avropa ilə müqayisədə yüksəkdir. Azərbaycanda əsas problem iş yerlərinin açılmasında daha çox açılan iş yerlərinin dayanıqlığı məsələsidir. Yeni iş yerləri açılır, ancaq onların nə qədər dayanıqlı olması sual altındadır. Əlbəttə, qeyri-neft sektorunun inkişaf etdirilməsinə ehtiyac var və bu da yeni iş yerlərinin yaradılmasına zəmin yarada bilər".

**İqtisadçı ekspert Pərviz Heydərov da "Yeni Müsavat"a danışarkən bildirdi ki, yeni iş yerlərinin açılması ilə bağlı müəyyən olunan statistika ilə reallıq çox zaman üst-üstə düşmür:** "Əhalinin sayının artması yeni iş yerlərinin yaradılmasına da tələbatı artırır. Ancaq bunun üçün yeni istehsal sahələri yaradılmalıdır, sahibkarlıq inkişaf etməlidir. Yeni iş yerlərinin, şəxsi təsərrüfat sahələrinin yaradılması üçün müvafiq şəraitin təmin olunması artıq iqtisadi islahatlara bağlı olan məsələdir. Bunun üçün həm də tələb yaranmalıdır. Ölkədə istehsal olunan məhsullar ixrac qabiliyyətinə də malik olmalıdır. Bu da həmin məhsulların rəqabət qabiliyyətinin yüksək olmasını tələb edir. Ona görə də il ərzində filan qədər iş yerinin açılması ilə bağlı deyilənlər çox zaman reallıqla uzlaşmır. Bu mənə yeni iş yerlərinin yaradılması kompleks tədbirlərin görülməsini tələb edir. Ayrıca olaraq, heç bir sektoru inkişaf etdirmək mümkün deyil.

**İnkişaf etmiş ölkələrin təcrübəsinə də diqqət yetirsək görərik ki, yeni iş yerlərinin açılması tempi standart deyil:** "Amerika kimi bir ölkədə 1 ay ərzində hökumət tərəfindən irəli sürülən proqnozla reallıq çox vaxt üst-üstə düşmür, ya az, ya da çox olur. O baxımdan neftin qiymətinin ucuzlaşmasından sonra Azərbaycan hökumətinin qeyri-neft sektorunun inkişafı ilə bağlı atdığı addımlar çərçivəsində statistikada göstərildiyi qədər yeni iş yerlərinin açılması keçici bir tendensiyadır. Növbəti illərdə bunun ardıcıl xarakter daşıyacağı ilə bağlı proqnoz verməK mümkün deyil. Amma uzaq gələcəyə baxsaq, həqiqətən də qeyri-neft sektorunun inkişafı ilə bağlı görülən işlər ardıcıl xarakter daşıyarsa, istər daxili, istərsə də xarici bazarda Azərbaycan məhsullarının rəqabət qabiliyyətliliyə təmin edilərsə, biz yeni iş yerlərinin açılması statistikasında müsbət dinamikanın şahidi ola bilərik".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# Çox yaşamağın sirləri

## İnsan ömrünü qısaldan əsas amillərdən biri də yuxusuzluqdur

**Bir qədər öncə Azərbaycanda ilk dəfə olaraq ölkənin uzunömürlülük xəritəsi tərtib edildi. Həmin xəritəyə əsasən Şuşa, Xocavənd, Xankəndi, Qazax, Tovuz rayonları üzrə sakinlərin uzunömürlülük göstəricisi yüksəkdir. Milli Elmlər Akademiyasının Fiziologiya İnstitutunun direktoru, biologiya üzrə elmlər doktoru Ulduz Həşimova mətbuata verdiyi açıqlamasında bildirib ki, hazırda ölkəmizdə təxminən 10 min nəfərin yaşı 90-dan çoxdur. O, həmçinin qeyd edib ki, ölkədə baş verən müəyyən hadisələr uzunömürlülərin sayının artıb-azalmasına təsir göstərib:**



"Məsələn, məcburi köçkünlük ilk növbədə qocalar və uzunömürlülərə öz mənfi təsirini göstərib. Son məlumatlar isə ölkəmizdə uzunömürlülərin sayının artdığını göstərir".

"Hər kim 100 il yaşamasa, günah onun özündədir" kimi bir deyim var. Ölkəmizdə uzunömürlülərin sayının artdığı deyilsə də, son vaxtlarda çoxlu sayda 60 yaşına çatmamış insanların dünyasını dəyişdiyinin şahidi oluruq. İş o yerə çatıb ki, bəzən 80-90 yaşlı insan görəndə təəccübümüzü gizlədə bilmirik. Halbuki ekspertlər bir insanın 120 yaşa qədər yaşaya biləcəyini qeyd edir.

Bəs niyə çox yaşaya bilmirik və ya bunun üçün nə etməliyik?

Ekspertlər qeyd edir ki, uzun və sağlam yaşamağın resepti əslində çox sadə və hər kəsin öz əlindədir. Çox yaşamaq üçün neqativ ünsürlərdən uzaq olmaq, çətinliklərə rəğmən gülümsəmək, çoxlu su içmək, çox gəzmək, vaxtlı-vaxtında yatmaq, yuxu rejiminə riayət etmək lazımdır.

Qidalara gəlincə isə ekspertlər qeyd edir ki, maksimal dərəcədə heyvani yağlardan, qırımızı ətdən uzaq qaçmaq, çörəkdən mümkün qədər az istifadə etmək, çoxlu meyvə-tərəvəz, göyərti, qoz, fındıq, noxud, lobya, bal məhsulları qəbul etmək lazımdır. Hər axşam isə yatmazdan əvvəl bir stəkan qatıq içmək qocalığı insandan uzaqlaşdırır.

İnsan ömrünü qısaldan əsas amillərdən biri də yuxusuzluqdur. Bu barədə həkimlər dəfələrlə xəbərdarlıq edib. Lakin son illərdə insanların sosial şəbəkələrə aludəçiliyi yuxusuzluq probleminin artmasına səbəb olub. Bu da insanlarda əsəb, gərginlik yaratması ilə bərabər, həyatında, işində də problemlər yaranmasına səbəb olur.

**Mövzu ilə bağlı tibb elmləri doktoru Adil Qeybulla "Yeni Müsavat"a danışıb:**

"İnsanın 100 yaşından çox yaşamaq imkanı var. Lakin sağlam qidalanmamaq, normal yaşayış rejiminin olmaması bunun qarşısını alır. Bütün bunların təsiri var. Ən əsası isə insanların tənbəlləşməsi məsələsi var. Bədənə daxil olan kalori enerji ilə çıxmır, nəticədə maddələr mübadiləsi pozulur. Buna görə də hazırda dünyada insanların əksəriyyəti artıq çəkidən əziyyət çəkir. İnsan öz sağlamlığı üçün çox ciddi tədbirlər görməlidir. İnsanların fəallığının artırılması üçün şərait yaradılmalıdır.

Araşdıranda məlum olur ki, indi 50 yaşına çatmamış insanların əksəriyyətində ürək-damar xəstəlikləri var. Halbuki əvvəllər adətən bu yaşda olan insanlarda qeyd etdiyim xəstəliklər müşahidə edilmirdi. Getdikcə ürək-damar xəstəliklərinin yaşı gəncləşir. Səbəb isə insanların öz sağlamlıqlarına biganəliyi, anormal yaşayış rejimidir".

Qeyd edək ki, artıq bir çox inkişaf etmiş ölkələrdə insanın ömrünün uzadılması üçün müxtəlif üsullar axtarılır. Məsələn, İtaliyada xüsusi "çip"lər hazırlanır. Məlumata görə, həmin "çip"lər dərinin altına yerləşdiriləcək. Guya həmin "çip"lər orqanizmdəki cüzi dəyişiklik haqqında dərhal xəbər verəcək. İlkin diaqnoz insanın orta hesabla 120 il yaşamasına köməklik edəcək. Bundan başqa, alimlər yaxın gələcəkdə süni orqanların yaradılmasının mümkün olacağını, bununla da insanların 150 ilədək yaşamasına imkan yaranacağını bildirir.

❑ **Xalidə, Musavat.com**

YENİ MÜSAVAT
N 111 (7000) 22 may 2018

**Bazar ertəsi sindromu həqiqətdir. Bazar axşamları çoxumuz tənbəllik edirək və həftə içinin gözlənilən yorğunluğuna görə stressə düşərək keçiririk. Çünki bütün həftə gerçəkləşdirdiyimiz işləri düşündükcə bu qədər istirahət etmək haqqımız təbiidir. Amma bazar günləri sizin üçün də əyləncəli bir zaman dilimi halına gələ bilər. Bir araşdırma həyatda uğur qazanmış insanların öz bazar günlərini necə keçirdikləri ilə bağlı həyata keçirilib. Görək, uğurlu insanlar öz istirahət günlərini necə dəyərləndirirlər?**



# Qərb insanı istirahət gününü belə keçirir, biz isə...

## Bazar gününü necə keçirməli?

**1.** Ailələri, dostları və önəm verdikləri insanlarla keyfiyyətli zaman keçirirlər. Uğur qazanan insanlar həftəlik planlarını etdiklərinə görə iş xaricində qalan və həyata keçirmələri lazım olan durumları yalnız bazar gününə sığışdırmırlar. Beləcə, bu günləri sevdiklərinə ayıraraq rahat vaxt keçirə bilirlər.

**2.** Öncədən həftə sonu üçün plan hazırlamanız üçün əyləncəli vaxt keçirməyə özünüzü hazırlamanızı təmin edir.

Geniş ailəyə sahib olanlar demək olar ki, hər bazar axşam yeməyində bir araya gəlirlər. Bundan başqa, bazar gününü bir film və ya SPA gecəsi olaraq elan edə bilir, ya da bazar gecəsi bir boulinq tura qatıla bilirlər.

**3.** Bəzi insanlar bazar gecələrində təqvimlərinə baxmağı və növbəti həftənin hədəflərinin və layihələrinin son tarixlərini müəyyənləşdirməyi tərcih edirlər. Buradakı ip ucu isə ondan ibarətdir ki, bunu özünüzə bir iş olaraq görməyəsiniz.

**4.İdman edirlər.**

Araşdırmaya qatılanlardan Eqan deyib ki, gəzintiyə çıxmaq, futbol oynamaq, idman salonunda idman etmək və bəyəndiyiniz idman növü ilə məşğul olmaq lazımdır. Məşhur bir TV prodüseri olan Aliza Rosen, bazar sabahları, saat 6.00-da oyanaraq yoqa ilə məşğul olurlar.

**5.Sağlam məhsullar yeyirlər.**

Bazar günləri oturduğumuz yerdə hər şeyi yeyib içərək vaxt keçirə biləcəyimiz günlərdən biridir. Amma əgər həftə içi onsuz da dolu olan proqramınızda sürətlə bir şeylər atışdırmaq zorunda qalırsınızsa, bazar günləri bədəniniz təmizləmək üçün müdhiş bir fürsətdir. Fast food və ya atışdırmalıq məhsullar yerinə faydalı, vitaminli bir yemək hazırlayın və bir az bitki çayı, ya da limonlu detoks suyu ilə dadını çıxarın.

**6. Mütaliə edirlər.**

Ən uğurlu insanlar yatmazdan öncə hər gecə nələrsə oxuyurlar. Bu səbəbdən də bazar gecəsi mütaliə etmək rutinlərinin bir parçasıdır. Həftə içində kitab oxumağa və ya xəbərləri izləməyə vaxt tapa bilmirsinizsə, bazar günlərinizin bir qismini buna ayıra bilərsiniz.

**7. Hər şeyi söndürün.**

Elektron məktublara cavab verməyi, oxumanız lazım olan mətnləri bitirdikdən və ya zənglərə geri qayıdandan sonra bir neçə saat boyunca elektronik alətlərinizi bağlayın. Karyer mütəxəssisi Maykl Kerr həqiqətən də uğurlu insanların yataqlarına yatmadan öncə, özəlliklə bazar gecəsində heç bir elektronik alətlə maraqlanmadıalrını bildirir. Bu insanlar elektron ünvanlarını həssas bir şəkildə nəzarət etməzlər və işlə bağlı mövzularda danışmamağa çalışırlar.

**8. Sakit bir gün keçirin.**

Bazar axşamı oturub istirahət etmək üçün bir az vaxt ayırın. Zehninizi və bədəninizi şarj etmək üçün zamana ehtiyacımız var. Cohen, qarşıdakı həftənin gərginliyinə ayaq uydurmamız üçün yaxşı bir yuxu keçirməmiz və vitaminli bir yemək yeməmimizin vacibliyini vurğulayır.

**9. Könüllü işlər görürlər.**

Bir həftəni xoşbəxt şəkildə sona çatdırmağın ən gözəl tərəfi könüllü işlər görmək ola bilər. Bu, yeni həftəyə çox daha enerjili başlamaq üçün ideal fürsətdir.

**10. Yuxularını planlaşdırırlar**

Bunu etməyin bir yolu hər axşam sistemli bir şəkildə yatmaqdır. Bu yuxu mütəxəssislərinin sağlam bir gecə yuxusunda olmalarına yardımçı olmaq üçün tövsiyə etdikləri önəmli bir vərdişdir.

### Bunlarsız bir bazar günü düşünmək mümkün deyil

Keçək digər məsləhətlərə. Bazar gününü ağıllı şəkildə keçirmək istəyənlərin etməli olduğu ilk şey... günü yataraq keçirməməkdir. Bunun üçün də şənbə axşamı hər zamankı kimi erkəndən yatmalısınız. Sanki ertəsi gün işə gedəcəksiz kimi düşünməlisiz. Həftənin digər günlərində saat neçədə yatırsınızsa, eyni saatda yatağa girməlisiniz. Beləliklə, bazar sabahı da erkəndən oyanmanın zövqünü yaşaya bilərsiniz. Çünki günortaya qədər yatdığınızada həm günün böyük hissəsini qaçırmış, həm də yuxu sistemini pozmuş olursunuz. Bunun əvəzinə erkəndən qalxaraq, səhər yeməyinizi yeyib, duşunuzu ala bilərsiniz. Günün geri qalan hissəsində isə bir sürü fərqli şey edə bilərsiniz.

Uğurlu insanlar tətil gününün böyük bir qismini hobbilərinə həsr edir. Çünki həftə boyu iş gününün stressi buna vaxt ayırmağa imkan vermir. Daha bir məqam isə tətil günlərində bu insanların öz sevdikləri ilə vaxt keçirmələridir. Çünki nə qədər zorlansanız da, zamanınızı nə qədər yaxşı idarə etsəniz də, iş günlərində sevdiklərinizə lazımi qədər vaxt ayıra bilmirsiz. Axı hər axşam işdən çıxıb evə gedəndə qrafikiniz sabit olur: əyninizi dəyişir, yemək yeyir və sonra bir də baxırsınız ki, gecə yarısı olub. Və siz ailənizlə doğru-dürüst danışa, dərdləşə, gözəllikləri paylaşa bilmirsiz. Öncəliyinizin onlar olduğunun fərqinə varmalısınız. Tənbəllik etmək yerinə əyləncəli planlar quraraq həftənin sonun gününün dadını doyunca çıxarmalısınız.

Bu arada yorğun bir həftədən sonra insanlar özlərini mükafatlandırmağı da sevirlər. Çünki bunu haqq etdiklərinin yüz faiz fərqindədilər. İşlərini uğurla tamamlamış olduqları üçün özlərinə də bir "jest" edirlər. Məsələn, uzun-uzun hamamda qalırlar, sevdikləri işlə məşğul olurlar, yaxınları ilə görüşür, alış-verişə çıxırlar. Bəzən həftə boyu yeməyi arzuladıqları təamları ya hazırlayır, ya da hazır alırlar. Mütaliə, sevimli filmi izləmək, musiqi dinləmək... də bu mükafatların arasındadır.

Uğurlu insanların tətil günlərində etdiyi bir başqa hərəkət də yerinə əyləncəli planlar quraraq həftənin sonun gününün dadını doyunca çıxarmalısınız.

Uğurlu insanlar günlərdən bazar olanda özləri üçün bir iş görmənin zamanı gəldiyini bilirlər. Həftənin yorğunluğunu və stresini çıxarmaq üçün də sevdikləri şeylərlə məşğul olurlar. Amma bununla paralel bazar günü mütləq hərəkət etməli, idmanla məşğul olmalısınız. Çünki böyük ehtimalla siz də iş günlərinizdə idman etməyə vaxt tapa bilmir və bu vacib mövzunu yaddan çıxarırsız. Doğrudur, bazar günü elə dəlilər kimi idman etməsəz də, bir az hərəkət etməyə çalışmalısız. Məsələn, qaçmağa çıxa bilərsiz, sevdiyiniz idman növü ilə məşğul olarsız. Yəni nə edərsinizsə edin, amma bir formada əzələlərinizin işlədiyindən əmin olun. Çünki sağlam yaşamaq üçün idman olmazsa olmaz.

növbəti həftənin planını hazırlamalarıdır. Çünki onlar bilirlər ki, planlı-proqramlı olmaq bir insanın həyatını necə asanlaşdıra bilər. Uğur qazanmaq üçün əllərində işə yarayan bir plan olmalı olduğunu da yaxşı bilirlər. Məhz bu səbəbdən bir çox hallarda həftəlik yox, günlük planlar hazırlayırlar. Beləcə, bazar axşamı çatanda bir çox adamın ağlını qurcalayan "sabah nə edəcəyəm, tətil yenə bitdi, böyük bir həftə necə keçəcək" kimi düşüncələr ucbatından stress yaşamaqdan da qurtulmuş olurlar. Əgər siz də bu dərdlərdən qurtulmaq istəyirsizsə, tətil günüzdə bir yarım saatınızı plan qurmaq üçün ayırmalısınız. Bütün həftənin proqramını hazırlamasaz belə, ən azından bazar ertəsi gününün planını hazırlamalısınız. Bununla da məlum "bazar ertəsi sindromu"ndan qurtulmuş, ümumiyyətlə, onu özünüzə yaxın buraxmamış olursuz.

Daha bir məqam... Bizlərdən fərqli olaraq, avropalılar və dünyanın inkişaf etmiş ölkələrindəki insanlar üçün həftə sonu işdən tam qopma məqamıdır. Bir çox insanlar həmin günlərdə ümumiyyətlə, mobil telefonun varlığını unudurlar. Görüşmələr, işlə bağlı danışıqlar minimuma endirilir. Üstəgəl, bazar günü günortadan sonra yeni həftəyə köklənmə zamanıdır. Bazar axşamı publara, gecə klublarına əylənməyə gedən iş adamını siz çətin ki, görəsiz. Çünki Avropa, Amerika kimi inkişaf etmiş ölkələrdə həftənin əyləncəyə ayrılan günləri cümə günü saat 4-dən bazar günü günorta saat 2-3-ə qədərdir. Məlum, cümə günləri qısa iş günü hesab olunduğu üçün insanlar əyləncə qrafiklərini bir gün öncədən, yəni, cümə axşamından müəyyənləşdirir. Bazar günü, günortadan sonra isə artıq əyləncə mərhələsi qapanır. Son nəticədə isə daha uğurlu, enerjili və bərəkətli bir iş həftəsi əldə edirlər.

❑ **Sevinc TELMANQIZI, "Yenì Müsavat"**


## "Bank of Baku" və "Bakcell" "Ulduzum"dan xaricə səyahət!

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi "Bakcell" şirkəti "Bank of Baku və "Bakcell" "Ulduzum"dan xaricə səyahət" adlı stimullaşdırıcı tirajlı lotereyaya start verir.**

**18 may-18 avqust 2018-ci il tarixlərini əhatə edəcək lotereya "Bank of Baku"nun xidmətlərindən faydalanan bütün «Bakcell» abunəçiləri üçün nəzərdə tutulub. Belə ki, lotereya çərçivəsində 1 nəfər "Bakcell" abunəçisi olan "Bank of Baku" müştərisi qalib olaraq seçiləcək və uduş fondunun əsas hədiyyəsi olan Dubaya 1 nəfərlik səyahət qazanacaq. Uduş paketinə Bakı-Dubay-Bakı istiqaməti üzrə təyyarə bileti, Dubay şəhərində 3 və ya 4 ulduzlu oteldə 3 gecə, 4 gün qalmaq haqqı, hava limanından otelə və oteldən hava limanına transfer və səyahət sığortası daxildir. Lotereyanın ikinci əsas qalibi isə "iPhone" mobil telefonuna sahib olacaq. Digər iştirakçıları isə bol-bol hədiyyələr gözləyir.**

**Lotereyada iştirak hüququ qazanmaq üçün "Bakcell" abunəçiləri "BOB" sözünü 5555 nömrəsinə SMS vasitəsilə göndərməlidir (SMS pulsuzdur). Cavab SMS-i vasitəsilə abunəçiyə müvafiq "Ulduzum" kodu göndəriləcək. Qeyd edək ki iştirakçı tərəfindən əldə edilən kod yalnız bir dəfə istifadə edilə bilər. Gün ərzində hər bir abunəçi 10 dəfə kod əldə edə bilər və hər bir kodun etibarlılıq müddəti 24 saat təşkil edir. Belə ki, abunəçi əldə olunmuş "Ulduzum" kodunu "Bank of Baku"nun istənilən filialında təqdim etməklə, bankın aşağıdakı xidmətlərindən istifadə zamanı müvafiq hədiyyə və lotereya şansları qazanacaq:**




**20.000 AZN-dək nağd pul krediti götürüldükdə 100 şəbəkədaxili dəqiqə və 300 meqabayt İnternet, illik faiz dərəcəsinə 5% endirim və 3 lotereya şansı;**

**"Bolkart" kredit kartı ilə 100 AZN-dən çox alış-veriş etdikdə 100 şəbəkədaxili dəqiqə və 200 meqabayt İnternet və 1 lotereya şansı;**

**Bankın ödəniş terminalları vasitəsilə təcili pul köçürmələri etdikdə, 100 şəbəkədaxili dəqiqə və 1 lotereya şansı;**

**"Bolkart" debet kartı əldə etdikdə 100 şəbəkədaxili dəqiqə və 1 lotereya şansı qazanacaq.**

**Lotereyanın əsas qalibləri 21.08.2018-ci il tarixində avtomatik qaydada xüsusi kompüter proqramı vasitəsilə təsadüfi seçim əsasında müəyyən ediləcək.**

**"Bank of Baku və "Bakcell" Ulduzumla xaricə səyahət" stimullaşdırıcı tirajlı lotereyanın şərt və qaydaları haqqında ətraflı məlumatla www.ulduzum.az səhifəsinə daxil olmaqla və ya Bank of Baku-nun 145 Məlumat Mərkəzinə zəng etməklə tanış ola bilərsiniz.**



**Elan**

**Orta ölçülü müxtəlif növ şüşələr satılır. Bazar qiymətindən 35-40% ucuz. Əlaqə nömrəsi: (070) 357 09 80 ELXAN**

YENİ MÜSAVAT
N 111 (7000) 22 may 2018

**Yayda təbii olaraq gün eynəklərinə tələbat artır. Böyüklü-kiçikli hər kəs gözlərini Günəşin zərərli şüasından qorumaq üçün eynək taxır.**

# Gün eynəyi alarkən nəyə diqqət etməli...

## "Çin, Dubay, Hindistan, Türkiyə və İrandan gətirilən gün eynəklərinin 80 faizi standartlara cavab verməyən plastik eynəklərdir və gözə ziyandır"

Telefon alarkən marka və bahalı olmasına üstünlük verdiyimiz halda, gün eynəyi seçərkən cibimizi düşünür, ucuzuna qaçırıq. Eynək üzümüzə yaraşdısa, vəssalam, alırıq.

Bəs görəsən, taxdığımız bu eynəklər gözlərimizi həqiqətən də Günəşin zərərli şüasından qoruyurmu? Keyfiyyətli gün eynəyi necə olmalıdır və eynək seçərkən nəyə fikir vermək lazımdır?

**Cərrah-oftalmoloq Mustafa Kılıçın sözlərinə görə, gün eynəyi alarkən əsas marka olmasına üstünlük verilməlidir:** "Gün eynəyi seçərkən 3 şeyə diqqət etməliyik. Birincisi, marka olmalıdır. Təbii ki, söhbət orijinal markadan gedir. Satışda marka adı ilə saxta eynəklər çoxdur. Gün eynəyi gözlərimizi ultrabənövşəyi şüalardan tam qorumalıdır. İkincisi, gün eynəkləri polaris olmalıdır. Üçüncüsü də, plastmas deyil, orqanik şüşə olması lazımdır. Ucuz və saxta gün eynəkləri gözdə problem yarada bilər. Plastmas gün eynəkləri gözü qorumaq yerinə, əksinə, ultra bənövşəyi şüaları gözümüzün ön və arxa hissəsinə ötürərək daha da çox ziyan verə bilər. Keyfiyyətsiz gün eynəklərindən istifadə zamanı görüntü keyfiyyəti də düşə bilər".

**Uşaqlara gəlincə, həkim 2-3 yaşdan sonra gün eynəyi taxa biləcəyini deyir:** "Lap körpə yaşında uşaqların gün eynəyi taxmasına ehtiyac yoxdur. Albinizm və anadangəlmə iris çatışmazlığı xəstəliklərində gözlərdə piqment çatışmazlığı olduğundan uşaqlara 1 yaşından sonra gün eynəyi taxmağını tövsiyə edirik. Günəş şüalarının onlara ziyan verməməsi üçün daha kiçik yaşlarda gün eynəyi taxmalıdırlar. Normal uşaqlar isə 2-3 yaşdan sonra rahatlıqla gün eynəyi taxa bilər. Təbii ki, orijinal olmaq şərti ilə".

**Oftalmoloq Şahin Novruzlu isə bəzən ucuz eynəklərin də keyfiyyətli ola biləcəyini diqqətə çatdırır:** "Gün eynəyi alarkən nəzərə alacağımız əsas şərt eynəyin Günəşdən Yer səthinə düşən ultrabənövşəyi şüaları 100 faiz blok etməsidir. Eynək alarkən diqqət etməliyik ki, sertifikatlı olsun. Sertifikat nəyə görə lazımdır? Sertifikatda eynəyin günəş şüalarını 99-100 faiz blok etməsi qeyd edilir. Gün eynəyinin günəş şüalarını tam blok edib-etməməsini adi gözlə bilmək olmur. Bəzən biz küçədə satılan ucuz eynəkləri aparatla yoxlayarkən görürük ki, ultrabənövşəyi şüanı tam blok edir. Demək ki, ucuz eynəklər də keyfiyyətli ola bilir. Eynəyin rənginin isə heç bir fərqi yoxdur. Tünd yaşıl, açıq qəhvəyi və s. ola bilər. Sadəcə, qar çox olan yerlərdə güzgülü günəş eynəklərindən istifadə edilməsi münasibdir".





**Ş. Novruzlu hesab edir ki, gün eynəkləri uşaqlar üçün daha vacibdir:** "Günəşin gözə zərəri çoxdur. Göz büllurunu bulandırır, katarakta meyllilik yaradır və s. Günəşə birbaşa baxmaq olmaz. Bunu biz böyüklər bilirik və baxmırıq. Lakin uşaqlar bəzən baxırlar. Günəş şüalarının pik olduğu saatlarda Günəşə baxarkən loru dildə desək, gözün tor qişa mərkəzində yanığa səbəb olur. Yaş fərqi yoxdur, uşaq eynəyi daşıya bilirsə, taxmaq olar. Adətən 4-5 yaşından sonra uşaqlar eynəyi rahat daşıya bilirlər. Keyfiyyətsiz gün eynəkləri bəzən uşaqlarda burun və qulaq hissəsində allergiya yarada bilir".

Eynək bazarında müxtəlif qiymətdə və formada gün eynəkləri satılır. 10 manatdan tutmuş, 300-500 manat və daha baha qiymətə. Supermarketlərdən birində satılan gün eynəkləri ilə maraqlanıram. Satıcı satdığı eynəkləri xeyli tərifləyəndən sonra keyfiyyəti haqda soruşuram:

- ***Eynəkləriniz ultrabənövşəyi şüalardan tam qoruyur?***

- Bəli.

- ***Bəs sertifikatı var?***

- Xanım, bu eynəklər 10-15 manatdır. Sertifikatsızdır. Siz istədiyiniz eynəklər çox baha olur. Ən yaxşısı, aptekdən alın.

Marketdən çıxıb yolun qarşı tərəfindəki aptekə üz tuturuq. Uşaqlar üçün "Polaroid" gün eynəklərinin qiyməti 15 manatdan başlayır. Satıcı 5 manat endirim də edəcəyini söz verir:

- Eynəyin şüşəsinə polyaroid yazılanlar ultrabənövşəyi şüadan yüzdə-yüz qoruyur.

- ***Sertifikatı var?***

"Yox", - deyə mızıldanır. Əmin etmək üçün vitrinin altında şəkil çıxarıb uzadır.

- Bu şəklə baxın, balıq görürsünüzsə, deməli, orijinal "Polaroid"dir.

Yoxlayıram. Həqiqətən də eynəklə şəklə baxanda adi gözlə görünməyən balıqlar görünür. Oftalmoloq Ş. Novruzlunun sözlərini xatırlayıram: "Polaroid" eynəklər ticari xarakter daşıyır". Aptekdə satılan yeganə sertifikatlı eynəklər isə optik şüşəli eynəklərdir.

Sertifikatlı eynək axtarışı ilə şəhərin mərkəzində yerləşən bahalı gün eynəkləri satılan mağazaya daxil oluruq. Mağazaya girəndə yaşlı kişi özünə gün eynəyi seçmiş, satıcı ilə qiymətdə razılığa gələ bilmirdilər. Yaşlı kişi elə hey "aşağı elə, alım", - deyə satıcını dilə tutur, satıcı isə "bunu 80 manata istəyiblər, satmamışam", - deyib geri addım atmır. Sonda razılığa gəlirlər. Yaşlı adam 75 manat ödəyir. Satıcı ağsaqqalı yola salıb mənə yaxınlaşır:

- Necə bir şey istəyirsiniz?

- Ultrabənövşəyi şüaları tam blok etsin.

"Polaroidləri tövsiyə edirdim", - deyərək əli ilə sağ stenddəki eynəkləri göstərir.

- Sertifikatları var?

- Var, amma baxın görün yazılanlardan nəsə baş çıxara bilirsiniz?!

Sonra stenddəki eynəklərdən birinin qutusunu açıb, içliyini mənə uzadır. Kağızda bir neçə dildə məlumat yazılıb. Rus dilində olanı oxuyuram. Şüşə haqqında xeyli məlumat yazılıb, bircə ultrabənövşəyi şüalardan qoruyub-qorumaması haqda bir kəlmə də qeyd edilməyib.

**Satıcı:**

- Sizinlə açıq danışacağam. Heç bir eynəyin üstündə sertifikat gəlmir. Bunu heç bir satıcı heç bir alıcıya demir, amma mən sizə deyirəm. Sertifikatı əlavə pulla alırıq. Onu da oxuyanda bir şey anlamaq olmur. Çin dilində yazılıb (gülür).

Sonra stenddən bir eynək çıxarıb mənə uzadır:

- "Polaroid"dir, gözə ziyanı yoxdur, ultrabənövşəyi şüaları öldürür.

Eynəyin modeli xoşuma gəlmir.

- Həəə, yaxşı model istəyirsinizsə, keyfiyyəti unudun.

Başqa eynək göstərir.

- Ucuz eynəkdir, 20 manata verərəm. Yalan olmasın, 500-dən çox satmışam, bir dənə də olsun şikayət gəlməyib. Problem olsa, mal mənimdir. Təbii ki, modelini bəyənmədiyiniz eynək daha keyfiyyətli idi.

Sonra satıcı siyirtmədən mağazanın ən bahalı eynəyini çıxarır.

- 250 manatadır. Bahalı malların o qədər də yaxşı görünüşü olmur. Bizim millət də görünüşə üstünlük verir. Çin istehsalıdır, amma heç bir mağaza bunu demir. İtaliya adı ilə daha baha satır. Bahalı mal çox gətirmirik. Alıcımız yoxdur. Əksəriyyət ucuzunu alır. Sizə anti-blik şüşə də verə bilərəm. Özüm də ondan istifadə edirəm. Qiyməti də münasibdir. 95 manat. Alası olsanız, endirim edəcəyəm.

Eynəyi gözümə taxıram. Həqiqətən də digərlərindən fərqlənir. Bəyənirəm. Endirim etməsini istəyəndə, qocaya etdiyi söhbəti mənə də edir: "Bunu 80 manata istəyiblər, verməmişəm". Sövdələşmə edirik, son qiymət 60 manatda dayanır...

Hələ də iki eynək arasında seçim edə bilmirəm. Satıcı qərarsız olduğumu görüb, fikirləşməyim üçün vaxt verir.

- Gedin evə, fikirləşin, amma çox gecikməyin. O modeldən bir dənə qalıb.

Sağollaşıb çıxıram...

**"Azad İstehlakçılar" birliyinin sədri Eyyub Hüseynov deyir ki, Azərbaycanda satılan gün eynəkləri gözlərimizi qorumur:** "Ucuz qiymətə satılan gün eynəkləri gözümüzü qorumaq əvəzinə, əksinə, korlayır. Keyfiyyətli gün eynəklərinin testləri olmalıdır. Alıcı öz hüququnu bilməli, gün eynəyi alarkən sertifikat tələb etməlidir. Azərbaycana əsasən Çin, Dubay, Hindistan, Türkiyə və İrandan gətirilən gün eynəklərinin 80 faizi standartlara cavab verməyən plastik eynəklərdir və gözə ziyandır".

**Ötən il Milli Məclisin Səhiyyə komitəsi Azərbaycanda həm optik, həm də gün eynəklərinin həkim məsləhəti olmadan satışını qadağan edəcək "Optika haqqında" qanun layihəsi hazırlayıb. Komitənin sədr müavini Musa Quliyev "Yeni Müsavat" qəzetinə bildirir ki, gələn həftə, iyunun 1-də parlamentin səhiyyə komitəsində bununla bağlı dinləmə keçiriləcək:** "Dinləmədə Səhiyyə Nazirliyi, həm də optika sahəsində çalışan mütəxəssislər millət vəkilləri ilə birgə müzakirə aparıb, bir nəticəyə gələcək. Hesab edirəm, bu məsələ kifayət qədər aktualdır. Optik eynəklərin satışı ilə bağlı məsələlərin hüquqi tənzimlənməsi lazımdır, eyni zamanda gündən qoruyucu eynəklərin də istər ölkəyə gətirilməsi, istər ölkədə hazırlanması, saxlanılması, satışında normativ standartlar olmalıdır və hamımız bu standartlara uyğun hərəkət etməliyik. Çünki təcrübə göstərir ki, satışda olan eynəklərin çoxu standartlara uyğun deyil. Hazırlandığı materialın orqanizmə zərərli olub-olmaması bəlli deyil. Bunlar hamısı beynəlxalq təcrübədən qaynaqlanan məsələlərdir. Azərbaycanda da bu standartların təmin olunması üçün ya bir qanunvericilik, ya da Nazirlər Kabineti səviyyəsində tənzimləyici təlimata ehtiyac var".

**Millət vəkili hesab edir ki, gün eynəklərinin həkim resepti ilə satışı vacib deyil:** "Gün eynəyinin həkim resepti ilə satışına zərurət görmürəm. Amma onların alınması, saxlanılması və satışı müəyyən standartlara uyğun olmalıdır. Gün eynəyi elə materialdan hazırlanmalıdır ki, material vətəndaşda allergik reaksiya, ya gözünə ziyan verməsin. Gün eynəklərinin sertifikatla satışı da önəmli məsələdir. Ən azından eynəyin harada, hansı standartlara uyğun hazırlanması, materialı barədə alıcıya məlumat verilməlidir".

**❑ Ləman MUSTAFAQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 111 (7000) 22 may 2018



# Yeniyetmə özünü polis kimi qələmə verib, yaşlı kişini soydu

Nyu-Yorkda 14 yaşlı yeniyetmə gözdən əlil bir kişinin pulqabını oğurlamaq üçün özünü yalandan polis kimi qələmə verib. Bu barədə "Associated Press" agentliyi xəbər verib. Yeniyetmə 64 yaşlı kişiyə yaxınlaşaraq, özünü polis zabiti kimi təqdim edib və onu stansiyaya qədər ötürməyi təklif edib. Videomüşahidə kameraları göstərib ki, kişi razılaşan kimi, yeniyetmə onun çantasını açıb, içindən pulqabısını götürüb və qaçıb.

Polislərin məlumatına görə, pulqabında 85 dollar nağd pul və bir neçə kredit-kart olub. O kartlardan birindən yeniyetmə 500 dollar götürməyə nail olub. Azyaşlını polisə anası gətirib. Onun əleyhinə oğurluq və özünü vəzifəli şəxs kimi təqdim edərək, dələduzluq etmək iddiası qaldırılıb.

2016-cı ilin avqustunda özünü yaşlı kişi kimi təqdim edən narkotacir barədə məlumat verilmişdi. O, polisdən qorunmaq üçün belə bir rola girmişdi. Bununla yanaşı, asayiş keşikçiləri cinayətkarın sifətini təhlil edib, onun qrimləndiyini fərq etmiş, sonra həbsə almışdılar.

# Sevgilisini arıqlatmaq istədi... həbs olundu

**Böyük Britaniyanın Şeffild məhkəməsi Məhəmməd Ənvər adlı sakinin həbsinə qərar verib. Buna səbəb onun öz sevgilisini fitneslə məşğul olmağa, eləcə də dietaya məcbur etməsi olub. Kişi 16 ay müddətinə azadlıqdan məhrum edilib. Bu, Məhəmmədin öz sevgilisi Cemma Doertiyə qarşı emosional təzyiqin nəticəsi olub. Kişi onu bəzi idman hərəkətlərini dəfələrlə təkrarlamağa, eləcə də çörək və şirniyyatdan imtinaya vadar etmək istəyib. Bundan başqa, o, sevgilisinin paltarlarını özü seçirmiş. 30 yaşlı Doerti məhkəmədə deyib ki, Ənvər ona dünyanın məşhur, gözəllik simvolu sayılan qadınlarının fotolarını göstərərək, "sən niyə onlar kimi gözəl görünə bilmirsən" deyə tez-tez soruşurmuş. Cemmanın sözlərinə görə, sevgilisi ondan hər gün qaçış aparatında 500 kilokalori**



**"yandırmasını" tələb edirmiş: "Bir dəfə mən 425 kilokalori itirdiyim dəqiqədə qaçış aparatından düşdüm. Çünki o, yatmışdı. Mən ondan çox qorxurdum".**

Britaniyalı qız bildirib ki, münasibətlərinin başlanğıcında Ənvər özünü belə aparmırdı. Son bir ildə isə "fitnes zorakılıq" başlanıb: "Onun əhvalı tez-tez korlanırdı və mənə həyatı zəhər edirdi".

O, eyni zamanda etiraf edib ki, Ənvər onu tez-tez döyürmüş. Hətta bir dəfə buna görə intihara cəhd edib.

# 18 il səhvən həbsdə qaldıqdan sonra azadlığa çıxan məhkum türməyə qayıtmaq istəyir



**Amerikada 18 il səhvən türmədə yatan və bu yaxınlarda azadlığa çıxan məhkum bildirib ki, məhbuslara savad vermək istəyir. Bu haqda "Nyu-York Post" nəşri xəbər verir. Con Bann Nyu-Yorkun kriminal bölgəsi olan Bruklində yaşayıb, 14 yaşında türməyə düşüb. Onu adam öldürməkdə ittiham ediblər. 2009-cu ildə isə nümunəvi davranışına görə onu azadlığa buraxıblar. 2018-ci ilin may ayında onun üzərindən bütün ittihamlar götürülüb. Sübut edilib ki, onun işini aparan detektiv Luis Skarsella bəzi şahidlərə təzyiq göstərib, bəzilərinin əvəzindən isə özü ifadə yazıb.**

"Bütün bunlar mənim başıma gələndə mən oxumağı bacarmırdım. Mən indi başa düşürəm ki, bu, işin gedişinə necə təsir göstərirdi. Mən düşünürdüm ki, məhkəmə mənə yardım edəcək. Amma məlum oldu ki, daha çox işimə ziyan etdi" - deyə, Con Bann bildirib.

**Conn Bann türmədə müstəqil şəkildə oxumağı öyrənib. O, bununla özünəqiyməti artırmağa və irəliyə doğru getməyə çalışıb.** "Mən savadsız insanlara elementar bilgiləri öyrətmək istəyirəm. Çünki anladım ki, məndən başqa xeyli insan belə situasiyada olub. Mən bir fəlakət yaşadım. Amma bunun əvəzində Allah məni bu arzu ilə mükafatlandırdı".

Skarsella isə barəsindəki ittihamların heç birini qəbul etməyib və deyib ki, öz işlərinə 100 faiz cavabdehdir.




**QOÇ** - İxtiyarınızda olan bu şıltaq təqvim sizin üçün uğurlu olmalıdır. Odur ki, vaxtınızı boşa verməyin. Müxtəlif ünvanlara baş çəkməklə maddi və mənəvi rahatlıq qazana bilərsiniz.

**BUĞA** - Hər bir məsələdə qanunauyğun addım atın. Saxta iş görmək, yalan vəd vermək, məsuliyyətsizlik sizi gözdən sala bilər. Elə edin ki, etibarlı müttəfiq imiciniz öz qüvvəsində qala bilsin.

**ƏKİZLƏR** - Həqiqətə yaxın olan arzularla yaşayın. Paxıl və bədxah adamlara fikir verməyin. Gələn ay üçün görəcəyiniz işləri indidən planlaşdırın. Uzaq səfərə çıxmağı isə təxirə salın.

**XƏRÇƏNG** - Daxili gərginliyiniz xeyli sengiyəcək. Bu isə başınıza yeni ideya və perspektivli fikirlərin gəlməsinə səbəb olacaq. Həlli mürəkkəb olan işlərə girişməyin. Sizə passivlik yaraşmır.

**ŞİR** - Daxili duyğularınızı tənzimləmək üçün fiziki işlərdən uzaq olun. Bu gün ulduzlar məclislərdə iştirakınızdan da xəbər verir. Dəvətləri qəbul etməyə çalışın. Səhhətinizə fikir verin.

**QIZ** - Fəaliyyət zəminində uğurlarınız xeyli artacaq. Bu istiqamətdə sizə etibar etdiyiniz bəzi insanlar da kömək edə bilər. Amma nəzərə almalısınız ki, mənfi enerjili Ay səhər saatlarından qədər bürcünüzdədir.

**TƏRƏZİ** - Sürprizlərlə dolu bir təqvim yaşayacaqsınız. Kiçicik gərginlikləri nəzərə almasaq, ətrafınızda cərəyan edən hər bir hadisə ürəyinizcə olacaq. Maraqlı görüşləriniz gözlənilir.

**ƏQRƏB** - Axşam saat 15-ə qədər nəzərdə tutduğunuz planları reallaşdırmaqda heç bir problemlə rastlaşmayacaqsınız. Sonrakı müddətdə isə ehtiyatlı olun. Axşam saatlarını evdə keçirməlisiniz.

**OXATAN** - Ümumi durumunuz qənaətbəxş olsa da, mənəvi problemlərə dözümsüzlüyünüz işləri korlaya bilər. İndi sizə enerji itirmək yox, güc toplamaq lazımdır. Axşam bir neçə sürprizə hazır olun.

**OĞLAQ** - İştirakçısı olduğunuz prosesləri gərginləşdirməyin. Qanqaraldan işlərə meyl etməsəniz, hörmətiniz artacaq. Günün ikinci yarısını bütünlüklə maliyyə məsələlərinə həsr edin.

**SUTÖKƏN** - Taleyüklü məsələlərin həlli üçün perspektivli təqvimdir. Mövcud problemlərinizi aradan qaldırmaq üçün əhəmiyyət kəsb edən adamlarla görüşün. Məsuliyyətsizlik etməyin.

**BALIQLAR** - Müəmmalı bir tarixdir. Özünüzlə bağlı situasiyaları nəzarətdə saxlaya bilməyəcəksiniz. Yaxşı olar ki, etibar etdiyiniz adamların rəyi ilə hesablaşasınız. Sizə kömək göstərəcəklər.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Polislər öldürülmüş qadın şəkli çəkib müsabiqə qalibi oldular



**Britaniyanın Perranport şəhərində polislər qumun üzərində qətlə yetirilmiş çılpaq qadın "heykəli" düzəldiblər. Bununla da həvəskar heykəltəraşlıq müsabiqəsinin qalibi seçiliblər. Polislər bu fiquru ilk dəfə sosial şəbəkədə paylaşanda ciddi qınağa məruz qalıblar. İstifadəçilər onları zövq kasadlığında və stereotiplərlə dolu düşüncə tərzinin olmasında ittiham ediblər. İttihamlarda həmçinin qeyd olunub ki, bu heykəl yaxınlarını dənizdə itirənlərə pis təsir edə bilər. Polis bölməsi rəhbərliyi müsabiqə iştirakçılarının əvəzindən üzr istəyib və deyib ki, həmkarları bununla heç kimin ruhunu incitmək istəməyiblər.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100